İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

ÜRƏYİMİN NƏĞMƏLƏRİ

İKSAD
Publishing House

İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

ÜRƏYİMİN NƏĞMƏLƏRİ

İKSAD
Publishing House

Copyright © 2021 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law. Institution of Economic Development and Social Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com

It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2021©

ISBN: 978-625-7636-19-3
Cover Design: İbrahim KAYA
March / 2021
Ankara / Turkey
Size = 16x24 cm

“ÜRƏYİMİN NƏĞMƏLƏRİ” adlı 49-cu kitabımı, mənə mənəvi dəstək olan, ürəyimə ürək, ruhuma pərvaz olan, diləyimə nur saçan, zəhmətkeş, fədakar - vəfalı dost, sədaqət - əxlaq simvolu ömür gün yoldaşım, Əli və Firuzə İmamverdinin anası

ŞƏKƏR QƏLƏNDƏR QIZINA

ərməğan edirəm

Müəllif

ŞƏKƏR İSGƏNDƏROVA

ÖN SÖZÜN MÜƏLLİFİ:

Prof.Dr. Babək Osman oğlu Qurbanov

Fəlsəfə elmləri doktoru, Professor

SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının üzvü

ELMİ və MUSİQİ REDAKTORU:

Prof.Dr. İlqar Cəmil oğlu və Əli İmamverdi

Sənətşünaslıq doktoru, Professor İlqar Cəmil oğlu İmamverdiyevin giriş məqaləsinin də yer aldığı **"ÜRƏYİMİN NƏĞMƏLƏRİ"** adlı kitaba müəllifin son 11 ildə bəstələdiyi 113 mahnıları nota yazılmış şəklində məcmuəyə daxil edilmişdir. Məcmuədə el şairi Cəmil Əkbərin 35-dən artıq poetik mətninə yazdığı musiqilər, həmçinin də müəllifin özünün və bir çox şairlərin *(Ə.Cavad, O.Sarıvəlli, Dədə Katib, C. Qurbanov, M.İlqar, Z. İmamverdi, İ. Cəmiloğlu, M. Göyçəli, R.Xasayoğlu, O.Hulusi, H. Təməl, M.Uslu və s.)* sözlərinə bəsələdiyi habelə xalq musiqi intonasiyaları ruhuna yatqın melodik nümunələr yer almaqdadır. Musiqi repertuarlarımızı zənginləşdirmək baxımından əhəmiyyət kəsb edən bu kitab Azərbaycan müğənniləri, xanəndələri və Türk səsə sənətciləri, xalq çalğı alətləri ansambl rəhbərləri, habelə yerli və yabançı musiqiçilər üçün nəzərdə tutulmuşdur.

MÜNDƏRİCAT

Ön söz: ***Prof.Dr. Babək Qurbanov*** "Tar və sazın vəhdəti, Tar və sazın qüdrəti" 7

Giriş: ***Prof. Dr. İ.C. İmamverdiyev*** "Milli musiqimizin qorunması üçün nota yazılması önəmlidir...21

1. Azərbaycan Türkiyə № 4 28
2. Gözün aydın Azərbaycan 31
3. Atatürküm 34
4. Məni candan usandırdı 37
5. Azərbaycan əsgəri № 1 39
6. Azərbaycan əsgəri № 2.....42
7. Olacammı?.....45
8. Nə mənası var? 49
9. Saz göndərərdim 52
10. Qadınların bayramı № 1 55
11. Qadınların bayramı № 2 58
12. Ağ çiçəklər № 1 61
13. Ağ çiçəklər № 2 63
14. Ağ çiçəklər № 3 67
15. Ağ çiçəklər № 4 70
16. Nerdesin, nerde? 72
17. Ayda su bulmuş kimiyəm 75
18. Novruz gələndə 78
19. Novruz bayramı xoş gəldin 80
20. Novruzum gəl 82
21. Xoş gəlmisən Novruzum 85
22. Xıdırəlləz, Bahar gəldi 88
23. Bahar gəldi 90
24. Mürvət eylə 92
25. Ay gecikən məhəbbətim № 1 96
26. Gecikən məhəbbətim № 2 100
27. İlk məhəbbətin 103
28. Nə gözəl çəkir 106
29. Dəyərdən salma № 1 109
30. Dəyərdən salma № 2 113
31. Ey gözəl pərim 116
32. Əvəzində 119
33. İnciməsin 121
34. Ürəyimdə 124
35. Firuzə-Cəmil deyişməsi 127
36. Dəyişmərəm № 1 130
37. Dəyişmərəm № 2 133
38. Bu dağların, o dağların 135
39. Şəhlam sənsiz 137
40. Ay oğul 140
41. Ay dünya 142
42. Gözlərin 145

43. Sən yadıma düşəndə № 1 148
44. Sən yadıma düşəndə № 2 150
45. Sən yadıma düşəndə № 3 153
46. Ay ana 156
47. Ana məhəbbəti, ata qayğısı 160
48. Sevgilim 163
49. Sevilən-sevən olmasa 166
50. Sevilən qocalmır, sevən qocalmır 170
51. Sazım hardasan?.....173
52. İnsan gərək 175
53. Dədə Katib divani 177
54. Ramazanım № 1 182
55. Ramazanım № 2 185
56. Bu baharım sıcak getir 188
57. Nə fayda 192
58. Ay ürəyim, canım ana 195
59. Zeynəb xanım 198
60. Zairə xanım 201
61. Bayatılar 203
62. Gülənə kimi № 1 207
63. Ölənə kimi № 2 210
64. Qarışmasa 214
65. Çay qarışmasa 219
66. Könül 223
67. El tanıyar № 1 226
68. Gül tanıyar № 2 229
69. Gələn deyiləm 232
70. Mübariz marşı 235
71. Təbrizim 237
72. Getmə, gəl! 243
73. Bilər 246
74. Həkim 250
75. Qurban olum 252
76. Ürəyimdə 256
77. Gözəl 259
78. Aysel Xanım 263
79. Ad günün mübarək 266
80. Ana, bacı, qadınlar № 1.....269
81. Ana, bacı, qadınlar № 2.....273
82. Ana, bacı, qadınlar № 3.....276
83. Ana, bacı, qadınlar № 4 279
84. Taparsan məni 282
85. Türkün bayrağı 287
86. Çırpınırdı Qaradəniz 291
87. Mübarək olsun 294
88. Sultanım 299
89. Nasıl yâr olayım ben 303
90. Ben olmuşum müptela 306

91. Sən olmadınmı?.....309
92. İnsan oğlu 312
93. Gəlməsin ölümün üstə! 315
94. Gözümdə qalmasın 318
95. Mənim anam № 1 321
96. Mənim anam № 2 325
97. Mənim anam № 3 328
98. Ay ana, bağışla məni.....330
99. Üçünə qurbanam ana 333
100. Vakt-i seher 339
101. Loğman, həkim, həmşirə 342
102. Həkimlərin № 1 345
103. Həkimlər № 2 347
104. Həkimlər № 3 349
105. Osman qağa 351
106. Polis, güvənlik, əsgərim, jandarma 354
107. Bir daha 357
108. Gitme, gel! 359
109. Selahaddin Arpacı 361
110. Türk ocağı AGAMDERDE 363
111. Sənə qurban olaram 365
112. Ad günün mübarək, Əli!.....367
113. Cüt bacılar 371
PROF. DR. İLQAR CƏMİL OĞLU İMAMVERDİYEV.....374

ÖN SÖZ

TAR VƏ SAZIN VƏHDƏTİ, TAR VƏ SAZIN QÜDRƏTİ.

(PROF. DR. İLQAR İMAMVERDİYEV HAQDA GECİKMİŞ MƏQALƏ)

Tarixi dərinliklərdən gələn Azərbaycan musiqisi məzmun və forma etibarilə də böyük təkamül yolu keçmişdir. Saysız - hesabsız zəhmət, tarixi - qəhrəmani motifli mahnılarımız, eyni zamanda mövsüm və dini mahnılarımız, rəngarəng instrumental musiqi nümunələri, zəngin aşıq sənəti, təkrarolunmaz klassik muğamlarımız xalqımızın yaratdığı nadir mənəvi-estetik sərvətlər olaraq dəyərləndirilməkdədir. Təbiidir ki, onların meydana gəlməsində bir nəsildən digərinə ötürüməsində və inkişaf etdirilməsində ayrı - ayrı xalq sənətkarlarının müstəsna rolu olmuşdur. Təsadüfi deyil ki, xalq da onların sənəti ilə birlikdə adlarını da heç bir zaman unutmur, onları əbədiləşdirməyə, sonsuza qədər daşımağa çalışır. Səfiəddin Urməvi, Əbdülqadir Marağai, Mir - Möhsün Nəvvab, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan, Aşıq Mikayıl Azaflı, Aşıq Əmrah Gülməmmədov, Cabbar Qaryağdıoğlu, Hüseyn Sarabski, Sadıqcan, Qurban Pirimov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Seyid Şuşinski, Xan Şuşinski, Şövkət Ələkbərova, Bülbül kimi böyük sənətkarlarımız əbədi olaraq Azərbaycan musiqi mədəniyyəti tarixinə daxil ola bilmişlər. Günümüzdə də sonsuz potensial - estetik imkanlara malik olan musiqi mədəniyyətimiz bu qəbildən olan sənətkarlarımızın ardıcıl və səmərəli fəaliyyətlərinə görə unudulmur, bütün təravəti və gözəlliyi ilə birlikdə qorunub inkişaf etdirilir. Aşıq Ədalət, məşhur kaman ustası Habil Əliyev, Hacı Məmmədov, Əhsən Dadaşov, Arif Babayev kimi tanınmış və xalqımız arasında sevilən sənətkarlar bu gün də yuxarıda qeyd etdiyimiz mütərəqqi və olduqca zəruri bir yaradıcılıq meylini davam etdirməkdədirlər. Dünyanın bir çox bəstəkarları, o cümlədən xalqımızın sevimli sənətkarı Üzeyir Hacıbəyli xalq musiqi mədəniyyətinin öyrənilməsinə, tədrisinə, eyni zamanda professional musiqi mədəniyyətinin inkişafında böyük rol oynamasını xüsusi olaraq dəfələrlə vurğulamışdır. Üzeyir Hacıbəyli yolunu davam etdrən görkəmli bəstəkarımız Cövdət Hacıyev isə Azərbaycan Dövlət Konservatoriyasında *(hal-hazırda Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası)* rektor vəzifəsində çalışdığı dönəmlərdə xalq musiqisinin əsasları, həmçinin klassik muğam dərsinin tədrisinə *(Əhməd Bakıxanovun yaxından iştirakı ilə)* son dərəcə böyük önəm verməsi inkaredilməz bir həqiqət idi. Bu gün də musiqi məktəblərimizdə, musiqi texnikumlarımızda, eyni zamanda Musiqi Akademiyası və Milli Konservatoriyasında xalq çalğı alətlərinin, milli vokal sənətinin, daha doğrusu klassik muğamlarımızın geniş tədrisi musiqi ictimaiyyətimizin, musiqisevərlərimizin bu sahəyə olan sönməz marağını göstərməkdədir. Qeyd etmək lazımdır ki, artıq musiqi folklorumuzun müxtəlif sahələrinin tədrisi və öyrədilməsi əskilərdə olduğu kimi daha çox şifahi bir şəkildə, ustad - çıraq (şəyird) üsulu ilə deyil, əsasən bəlli bir yol keçmiş tədris metoduna əsaslanaraq həyata keçirilməkdədir. Artıq xalq musiqimizin tədrisi də professional musiqi savadı almış, Avropa nota sistemi və musiqişünaslıq nəzəriyyələrinə bələd olan müəllimlər tərəfindən həyata keçirilməkdədir. Bu qəbildən olan müəllimlərimizdən biri də bütün həyatını zəngin xalq musiqimizin tədrisi, tədqiqi və yayılmasına həsr etmiş Sənətşünaslıq Elmləri Doktoru, Professor İlqar İmamverdiyevdir. Lakin İlqar bəyi digərlərindən fərqləndirən bir cəhəti də xüsusi olaraq qeyd etmək lazımdır. O, forma və kompozisiya, eyni zamanda idea - məzmun baxımından zəngin və mürəkkəb olan klassik muğamlarımızı dərindən bilməsi, məharətlə ifa

etməsi, eyni zamanda onun tədrisi işində yaxından iştirak etməklə birlikdə, əsrlərin süzgəcindən gələn möhtəşəm aşıq poetik musiqili yaradıcılığını da dərindən bilməkdədir. Ən kiçik yaşlarından Azərbaycan musiqi mədəniyyətinin əsaslandığı bu iki mühüm tərəflərini, yəni aşıq - ozan və klassik muğam sənətinin sirrlərinə yiyələnməyə çalışan İlqar gələcəkdə həqiqətən də bu iki sahənin ən gözəl mütəxəssislərindən birinə çevrilmişdir. Klassik muğamlarımızı bir dəstgah halında, şöbələri, dəramədləri, rəngləri, diringiləri və s. ilə birlikdə yüksək professionallıqla ifa edən sənətkar, eyni zamanda 80-dən çox poetik formaya, 100-dən artıq melodiyaya sahib olan aşıq-ozan sənətinin bütün incəliklərinə qədər bilməkdədir.

Qeyd etmək lazımdır ki, bu yaradıcılıq xüsusiyyətinə musiqi təcrübəsində çox az - az rastlamaq mümkündür, bəlkə də günümüzdə bunu bir nadir hal kimi də qiymətləndirmək mümkündür. Bir - birinə yaxın, həm də ifa tərzi, məzmun və forma, kompozisya baxımından fərqli olan bu iki professional musiqi sahələrini eyni səviyyədə anlamaq, bilmək və ifa etmək hər kəsə nəsib ola bilən bir səadət deyildir. Bu sənət sahələrinin xüsusiyyətlərini qeyd edən sevimli bəstəkarımız Fikrət Əmirov bir daha haqlı olaraq göstərirdi ki, *"... aşıq sənəti ilə muğam sənəti yaxın olduğu qədər də uzaqdır. Nə qədər doğma olsalar da, əkiz deyillər. Ona görə də hər ikisinin incəliyinə vaqif olmaq, hər ikisinin səciyyəvi cəhətlərini gözləmək vacibdir. İndki aşıqlarımızın isə çoxu muğamdan sui - istifadə edir. Belələrinə qulaq asanda şəxsən mən çətinlik çəkirəm deyəm ki: aşıq olmağına aşıqdır....."*[1]

Qeyd edək ki, İlqar İmamverdiyevin yaradıcılıq üslubu bu cür səthilikdən, ucuz populizmdən uzaqdır. Yəni, muğamlarımızın ifasında o klassik muğam sənətinin realist prinsiplərinə əsaslandığı kimi, aşıq havalarını (melodiyalarının) ifasında da əsrlərdən gələn ənənələrə sadiq qalmağı özünə əsas yaradıclıq prinsipi olaraq götürür. Bu prinsipi o yalnız çoxtərəfli ifaçılıq fəaliyyəti ilə deyil, eyni zamanda elmi - nəzəri fəaliyyəti ilə də müdafiə etməyə, bu iki xalq yaradıcılığı sahələrinin özünəməxsusluğunu və həqiqi estetik təravətini qorumağa çalışır. Bununla belə sənətkar həm tar, həm də saz kimi xalq musiqi alətlərimizi heç də statik, əski ifadə - təsvir vasitələri çərçivəsində qalan alətlər kimi görmək istəmir. O, xalq musiqimizin daxili potensial - estetik imkanlarını, burada ifadə olunmuş hiss və duyğular səltənətini hər yönlü, daha geniş bir şəkildə dinləyicilərə çatdırmaq üçün adlarını çəkdiyimiz musiqi alətlərinin texnik - estetik imkanlarının da genişləndirilməsi fikrinə haqq qazandırmaq istəyir. Onun istifadə etdiyi tar və saz alətlərinə diqqət yetirdiyimizdə sənətkarın bu alətlərin təkmilləşdirilməsi, rekonstruksiyası baxımından nə qədər zəhmət çəkdiyinin şahidi olursan. Hər şeydən əvvəl hər iki alətin diapazonunun genişləndirilməsi, tembr xüsusiyyətlərinin zənginləşdirilməsi, ifa texnikasının asanlaşdırılması *(məsələ, tarda ifa zamanı dördüncü barmağın da istifadə olunması)*, burada akkord səslərinin belə əldə edilməsi kimi təsvir - ifadə vasitələrinin əldə edilməsini aydın bir şəkildə görə bilirsən. Xalqımızın musiqi mədəniyyətinin inkişafında xüsusi yeri olan bu alətlərin texnik - estetik imkanlarının genişləndirilməsinə olan bu meylin bir səbəbi də onların daha geniş repertuara yiyələnə bilməsi eyni zamanda digər xalqların musiqi mədəniyyətlərinin ən gözəl nümunələri ilə xalqımızı tanış etmək arzusundan irəli gəlməkdədir. Həqiqətən də İlqar müəllimin repertuarına nəzər salsaq onun nə qədər zəngin olması ən populyar xalq havalarından tutmuş, mürəkkəb muğamlarımıza, aşıq melodiyalarımıza, eyni zamanda professional

[1] Fikrət Əmirov. Musiqi düşüncələri, Azərnəşr, Bakı, 1971, s. 81.

bəstəkarlarımızın əsərlərindən başlayaraq dünya xalqlarının musiqisinə, professional Avropa bəstəkarlarının əsərlərinə qədər uzanmasını izləyə bilirik.

İlqar müəllim bu son zamanlar sazın tədrisinə daha da populyarlamasına, musiqi mədəniyyətimizin inkişafında özünə layiq yer tuta bilməsinə xüsusi fikir verməkdədir. Bu yaxın zamanlara kimi məlum ideoloji səbəblər ucbatından bu alətin, ümumiyyətlə də aşıq-ozan sənətinin uzun bir zaman basqı altında tutulması, hətta bəzən üstü örtülü şəkildə belə olsa da, təqib edilməsi, onun idea - məzmununa qadağalar qoyulması kimi neqatif hallara görə bu sənətin azad bir şəkildə inkişafında məlum axsamalar da olmuşdur. Xatırlatmaq lazımdır ki, xalqımızın böyük sənətkarı Üzeyir Hacıbəyli, Səməd Vurğun, Fikrət Əmirov, Niyazi, Qara Qarayev, Səid Rüstəmov və başqaları bu sənətin professional musiqimizin inkişafı üçün olduqca səmərəli olduğunu dəfələrcə söylədiklərinə, eləcə də əsərləri ilə sübut etmələrinə baxmayaraq onun musiqi məktəblərimizdə tədrisi işi uzun bir müddət kölgədə qalmışdır. Üzeyir Hacıbəylinin ölməz "Koroğlu" operası, "Aşıqsayağı", "Cəngi" kimi əsərləri, eyni zamanda aşıq musiqisindən ilhamlanaraq yazılmış Qara Qarayevin, Fikrət Əmirovun, Süleyman Ələsgərovun, Aqşin Əlizadənin, Rəşid Şəfəqin və digər bəstəkarlarımızın bir çox əsərləri artıq aşıq musiqi intonasiyalarının və metro - ritmik xüsusiyyətlərinin professional musiqimizdə özünə möhkəm yer almasını göstərməkdədir. Vaxtilə Azərbaycan xalq çalğı alətlərinin, xüsusilə də tarın simfonik orkestrdə yer almasını tembr baxımından, millilik baxımından son dərəcə maraqlı hesab edən Üzeyir bəy Məmməd Səid Ordubadi ilə olan bir söhbətində bu məsələyə toxunaraq sazın tembrinin orkestrdə yenilik yaratdığını və onun zərif səslərinin xoş bir tərzdə mənimsənilə bilməsini etiraf etməklə birlikdə, onun simfonik orkestrə əlavə edilməsini zəruri bilmişdir. Kamançanın səsinin isə orkestrdə skripkalar əvəz edə biləcəyindən, burada ona o qədər də ehtiyac duyulmadığını da bir daha göstərmişdir"[2].

"Koroğlu" operasında böyük bəstəkar saz musiqisinin bütün xüsusiyyətlərindən, intonasiya, metro - ritm, tembr, melizmatika kimi ünsürlərindən yaradıcılıqla istifadə etməsinə baxmayaraq, burada orkestrdə tarlara, hətta zurna kimi çox hündürdən səslənən bir nəfəs alətinə belə daha çox yer vermişdir. Sazlara nədənsə bu imkan saxlanmamışdır. Zənnimizcə bunun səbəbi folklorşünaslarımızı bir daha düşündürməlidir. Bəlkə də o zamanlar sazın şəhər mühitindən bir qədər uzaq qalması, tar qədər musiqi mədəniyyətimizdə aktiv bir şəkildə iştirak edə bilməməsi və ya onun daha çox fərdi ifaçılığa meyl etməsi, aşıqlarımızın isə kollektiv ifaçılığa maraq göstərməmələri xüsusilə də simfonik opkestrdə yer ala bilməmələri, bunun özləri üçün qəbul edilməz bir hadisə olduğu düşüncəsi bəstəkarın bu sevdadan vaz keçməsinə səbəb olmuşdur. Xatırlatmaq lazımdır ki, artıq 1908-ci ildən başlayaraq Bakıda tanınmış muğam ustalarımızın konsertləri, Cabbar Qaryağdıoğlu, Hüseyn Sarabski, Seyid Şuşinski, Xan Şuşinski, Qurban Pirimov, Əhməd Bakıxanov kimi sənətkarlarımızın fəaliyyəti, ən öməmlisi isə onların professional səhnə sənəti olan opera sənəti ilə olan yaxın təmasları, Üzeyir Hacıbəylinin bütün ilk səhnə əsərlərində bu və ya digər şəkildə iştirak etmələri heç şübhəsiz klassık muğam sənəti sahəsində fəaliyyət göstərən sənətkarlarımızı aşıqlarımıza nisbətən daha erkən simfonik orkestr mədəniyyətinə yaxınlaşdırmaqda, tarın isə orkestrdə özünə layiq yer tutmasına səbəb olurdu.

[2] Bax: Slovo ob Uz. Qadjibekova, (Sostavitel i avtor kommentariev Axmed İsa-zade), Baku, Elm, 1985, s.143.

Son zamanlar aşıq musiqisi ifaçılığı, daha doğrusu onun milli çərçivələri aşması, həmçinin simfonik orkestr ilə uzlaşması meylinin artmasının da şahidi olmaqdayıq. Məsələn, artıq tar ilə simfonik orkestr üçün bir çox konsert əsərlərinin meydana gəlməsini *(məsələn, bu baxımdan Səid Rüstəmovun, Adil Gərayın, Hacı Xanməmmədovun, Süleyman Ələsgərovun və başqalarının adını çəkmək mümkündür)* söyləmək mümkündür. Lakin saz ilə orkestr üçün bəstələnmiş əsərləri barmaqla saymaq olar. Burada da not sisteminə əsaslanan saz məktəbinin tar ifaçılıq məktəbinə nisbətən tarixən son zamanlar formalaşa bilməsi heç şübhəsiz əsas səbəblərdən olmuşdur.

Qeyd etmək lazımdır ki, İlqar İmamverdiyevin saz poetik - musiqi ədəbiyyatı sahəsindəki ensiklopedik bilgisi, aşıq havalarının professional və yeri gəldikdə virtuozcasına ifası bəstəkarlarımızın bu sevimli alətə olan marağını bir daha artırmışdır. Aramızdan 10 ildir ki, ayrılan xeyirxah insan və sevimli bəstəkarımız Süleyman Ələsgərov bu sahədəki səylərini və yaradıcılıq təşəbbüsünü xüsusi olaraq dəyərləndirmək lazımdır. Onun saz ilə orkestri üçün bəstələdiyi "Aşıqvarı" (1984) əsərini bu baxımdan xüsusi olaraq dəyərləndirmək lazımdır. Xalq çalğı alətləri orkestrinin müşayiəti ilə nəzərdə tutulmuş bu əsər bəstəkarın rəhbərliyi və dirijor İsmayıl Hacıyevin köməkliyi ilə 1993-cü ildə simfonik orkestrin dilinə çevrilmiş, nəticədə gözəl bir bədii sintez ortaya çıxmışdır. Azərbaycan aşıqlarının IV qurultayı *(1984)* ilə əlaqədar yazılmış bu əsərin ilk dəfə canlandırılması sırf İlqar İmamverdiyevin ilhamlı ifası nəticəsində həyata vəsiqə ala bilmişdir.

İlqar İmamverdiyevin sazını bir çox filmlərin tamaşasında da eşitmək mümkün olmuşdur. Məsələ, musiqisini *(vaxtsız dünyasını dəyişmiş istedadlı bəstəkarımız)* Emin Sabitoğlunun yazdığı "Qaçaq Nəbi" filmində səslənən aşıq havası olan "Qaçaq Nəbi" onun ifasında səsləndirilmişdir. Xatırladım ki, bu filmdə sənətkar saz, tar və hətta udda belə böyük bir ilhamla çalmışdır. 1982-ci ildə isə məşhur maarifpərvər ədibimiz Abdulla Şaiqin "Tülkü Həccə gedir" nağılına bəstələnmiş Rəşid Şəfəqin musiqisində orkestlə birlikdə *(istedadlı dirijor Həsənağa Qurbanov idi)* öz sazını səsləndirmişdir. Qeyd etmək lazımdır ki, İlqarın ifaçılıq məharəti, xüsusilə də saz ifaçılığı hələ çox gənc yaşlarından musiqiçilərin diqqətini özünə çəkmiş və artıq Konservatoriyanın 4-cü kursundan başlayaraq onu professional səhnələrə dəvət etməyə başlamışlar. Daha doğrusu artıq 1979-cu ildən başlayaraq o xalq yaradıcılığımızım gözəl bilicisi sevimli bəstəkarımız Səid Rüstəmovun adını daşıyan Azərbaycan Radio və Televiziya Komitəsi nəzdində fəaliyyət göstərən Xalq Çalğı Alətləri Orkestrində saz üzrə işə dəvət olunur. Xalq artisti Nəriman Əzimovun rəhbərliyi altında fəaliyyət göstərən bu orkestrdə mühüm yaradıcılıq yolu keçən və bir çox şəhərlərdə qastrol tamaşalarında iştirak edən İlqar bəy, fərdi ifaçılıq qabiliyyətini və istedadını da itirmir, daima öz texniki səviyyəsini, bilik və bacarığını artırmağa çalışır. Orkestrlə birlikdə yeri gəldikcə müxtəlif ansambılarda və tədricən solist kimi çıxış etməyə başlayan sənətkar haqlı olaraq musiqi mədəniyyətimizin sosyal həyatında özünə layiq yer almağa başlayır. Onun ifaçılıq sahəsindəki fəaliyyətinə nəzər saldıqda bu xüsusiyətin aşkar bir şəkildə özünü göstərməsinin şahidi oluruq. Sənətkarın müxtəlif illərdə dünyanın bir çox ölkələrindəki qastrol səfərləri, beynəlxalq festivallardakı uğurlu çıxışları *(məsələ, Roma, Neapol, Moskva, Sankt - Peterburq (Leninqrad), Daşkənd, Səmərqənd, Alma - Ata, Bağdad, Ankara, İstanbul, İzmir, Ərzurum, Qars, Tibilisi, Yerevan, Eçmiadzin, Təbriz, Urmiyə və s.)* eyni zamanda Azərbaycanın

tanınmış sənət adamları ilə olan yaradıcılıq əlaqələri *(məsələn, ölməz sənətkarımız Rəşid Behbudov, Lüfiyar İmanov, eyni zamanda Arif Məlikov, Süleyman Ələsgərov, Emin Sabitoğlu, Zöhrab Adıgözəlzadə, Gülnaz Abdullazadə, Əminə Dilbazi, Akademik Firudin Köçərli, Rasim Əfəndiyev, Rəna Məmmədova, Azad Nəbiyev, Mürsəl Həkimov və s.)* onun bir şəxsiyyət, bir musiqiçi kimi fəaliyyət sahəsinin, estetik maraq dairəsinin durmadan genişlənməsini göstərməkdədir. İştirak etdiyi çoxsaylı konsertlərdə, müxtəlif tədbirlərdə tarını və sazını əldən qoymayan bu istedadlı sənətkar dinləyiciləri qarşısında çıxışlardan böyük həzz alır, yorulmağın nə olduğunu blmir. Bununla belə böyük sənətkarlara xas təvazökarlıq, eləcə də sosyal məziyyət hisslərini heç bir zaman itirmir. Hər gün məşqlər üçün 3 - 5 saatını xərcləyən sənətkar tara və saza yeni - yeni bədii hadisələr gətirməkdın doymur. Bu, yuxarıda da haqqında açdığımız bədii - ifadə vasitələrinin, texniki imkanların genişləndirilməsi ilə məhdudlaşmır, sənətkarın yeni - yeni professional Azərbaycan bəstəkarlarının əsərlərinə, bəzən isə dünya və Rus bəstəkarlarının əsərlərinə olan yaradıcı münasibəti sayəsində mümkün olur. Hal - hazırda İlqar bəy saysız - hesabsız xalq havalarını, muğamlarımızı, eyni zamanda aşıq havalarını hafizəsində saxlamaqla sənətkar vəzifəsini bitmiş hesab etmir, tez - tez professional bəstəkarlarımızın əsərlərinə müraciət edir, fortepianonun müşayiəti ilə Üzeyir Hacıbəyli, Tofiq Quliyev, Səid Rüstəmov, Hacı Xanməmmədov kimi sənətkarlarımızın mürəkkəb əsərlərini belə tarda ifa etməkdən çəkinmir. Qeyd etmək lazımdır ki, bu əsərlərin çoxu şəxsən İlqar bəyin bilavasitə iştirakı ilə yeni bir traktovkada *(yorumda)* həyata vəsiqə almış olur. Daha doğrusu sənətkar bu əsərləri xüsusi olaraq tar və sazın tembr *(səs tonu),* diapazon, texnik - estetik imkanlarını nəzərə alaraq sırf bu alətlər vasitəsilə solo şəklində səsləndirilməsinə çalışır. Beləliklə orijinal və müxtəlif alətlər üçün belə yazılmış əsərləri o tar və ya saz üçün də işləyə bilir. Bununla o, eyni zamanda bu alətlərə aid repertuarın da durmadan genişləndirilməsinə nail olur. Bu xüsusiyyəti onun dünya musiqisindən alınmış musiqi əsərlərinə olan münasibətdə də izləyə bilirik. Bu baxımdan Bizenin "Karmen" operasından "Antrakt", Montinin "Çardaş", Dvorjakın "Slavyan rəqsi", Qunonun "Faust" operasından "Vals" kimi bir çox əsərləri misal gətirmək mümkündür. Lakin bütün bunlardan fərqlənən bir əsər də vardır ki, İlqar İmamverdiyev tərəfindən sazın bütün zəngin texniki-estetik imkanlarının üzə çıxarılması mümkün olmuşdur. Bu əsər Üzeyir Hacıbəylinin "Koroğlu" operasına yazılmış "Uvertyura"sıdır. Böyük simfonik orkestr üçün yazılmış bu forma və kompozisiya baxımından mürəkkəb olan əsər, fortepianonun belə müşayiəti olmadan və yalnız bir alətdə - bəziləri üçün bəlkə də primitiv görünən bir alətdə - sazda və ilk dəfə olaraq ifa olunmaq üçün işlənmişdir. İlqar müəllim burada demək olar ki, bütün ifaçılıq, yorumçuluq, analitik məharətini göstərə bilmişdir. Əsərin (orijinalın) demək olar ki, bütün harmonik, melodik, polifonik xüsusiyyətləri, eləcə də zəngin melizm və nüansları belə sazın imkanlarına uyğun olaraq bir növü orkestrin səslənməsi *(bəzi yerlərdə tutti şəklində olsa belə),* daha doğrusu partituranın bütün rəngarəngliyi sazın ifasında öz yerini ala bilmişdir. İlqar İmamverdiyevin ilhamlı ifasında bu məşhur "Uvertyura" yeni bir təravətlə səslənir və hər dəfə də dinləyicilərin böyük marağına səbəb olur. 2000-ci ildən başlayaraq Türkiyəyə, Ərzurum Atatürk adına Universitetinə dəvət olunan İlqar bəy burada da bu qəbildən olan axtarışlarını davam etdirməkdədir. Xüsusilə onun Türkiyə Cümhuriyətinin "İstiqlal Marşını" saz üçün işləməsi də böyük marağa səbəb olmuşdur. Hal - hazırda müxtəlif tədbirlərdə, simpozyum və

elmi - nəzəri konfransların açılışında, bayram şənliklərində və s. İlqar müəlim hər zaman "İstiqlal Marşı"-nı oxuyan insanlara Azərbaycan sazının ifası ilə müşayiət edir.

Türk musiqisinə, Türk bəstəkarlarının əsərlərinə olan yaradıcı münasibət İlqar İmamverdiyevin yaradıcılığında yeni bir mərhələ təşkil etməkdədir. Hal - hazırda o, Türk xalq musiqi folklorundan ibarət əsərlərin tar və bağlama *(Türk sazı)* üçün yorum üzərində çalışmaqdadır.

İlqar bəy konsert fəaliyyətindən də qalmır, Türkiyənin müxtəlif şəhərlərində, daha çox da Doğu (Şərq) bölgəsində *(Qars, Ərzurum, Bayburt, Ardahan, Oltu, Ağrı və s.)* konsertlərdə iştirak edir, xüsusilə də Azərbaycan musiqi mədəniyyətinin nailiyyətlərini dinləyicilərinə çatdırmağa çalışır.

İlqar bəyin xalqın keçirdiyi milli və dini bayramlarda iştirakı da böyük marağa səbəb olur. Bu tədbirlərdə o, bayramların ruhuna, əsas ideasına uyğun olarq aşıq havalarına müraciət edir, onların daha cazib, daha mənalı keçməsinə xidmət göstərmiş olur. Hətta vaxtilə (2002) Bahar bayramı sayılan "Novruz" bayramının Ərzurumda, Atatürk Universiteti tərəfindən daha canlı keçirilməsi üçün belə İlqar bəy Dədə Qorqud rolunda iştirak etmək dəvət olunmuşdur və o, öz sazı ilə, sözü ilə bu şərəfli vəzifəni minlərcə Ərzurumlu tələbələr və dinləyicilər qarşısında layiqincə yerinə yetirə bilmişdir.

İlqar bəy elmi - tədqiqat işlərini də axsatmadan müvəffəqiyyətlə davam etdirməkdədir. Xüsusilə onu aşıq - estetik prinsiplər maraqlandırmaqdadır. Onun bu yaxınlarda Cənubi Azərbaycanda aşıq sənətinin xüsusiyətləri ilə əlaqədar çap etdirdiyi kitabları və məqalələri Türkiyədə də böyük marağa səbəb olmuşdur. Bu məqalələr Türkiyənin sayılan elmi - nəzəri jurnallarından olan və dünyanın bir çox ölkələrinə göndərilən *Atatürk Universitesi Türkiyat Araşdırmaları Enstitüsü Dərgisi*ndə çap olunmuşdur. Unutmamaq lazımdır ki, aşıq musiqisinin tədqiqi işində də İlqar bəyin müəyyən bir təcrübəsi və bilgisi vardır. Bu baxımdan onun "Azərbaycan aşıq ifaçılıq sənətinin səciyəvi xüsusiyətləri" *(elmi rəhbəri Prof. Dr. Gülnaz Abdullazadə olmuşdur.)* sənətşünslıq namizədliyinə təqdim edilən dissertasiyası musiqişünaslıq və kulturologiya sahəsində xüsusi marağa səbəb olmuşdur. Əsərə yazılmış musiqişünas alimlərimizin rəyləri ilə birlikdə, ozan - aşıq yaradıcılığının gözəl biliciləri olan tanınmış alimlərimizdən Akademik Firudin Köçərli, Prof. Dr. Mürsəl Həkimov, Prof. Dr. Sədnik Paşayev, Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə şöbəsinin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf İsmayılzadə də müsbət rəy vermişlər. Hal - hazırda İlqar bəy Türkiyədə ozan - aşıq sənətinin xüsusiyyətlərinin öyrənilməsi, burada aşıq musiqisinin ifasında geniş bir şəkildə istifadə olunan və xalq tərəfindən olduqca sevilən bağlama *(bizim Azərbaycan sazından tembrinə, diapazonuna görə fərqlənən)* kimi bir musiqi alətinin tədqiqi ortaq dəyərlərin üzə çıxarılması yolunda məhsuldar bir şəkildə çalışmaqdadır.

İlqar bəy bağlama üçün xüsusi dərslik üzərində də çalışmalar aparmışdır. Bu yaxınlarda Azərbaycan Milli Konservatoriyasının meydana gəlməsi ilə əlaqədar olaraq bu cür dərsliklərə olan ehtiyacın artmasının şahidi oluruq. Saz aləti üzrə də dərsliklərin meydana gəlməsi aktual məna daşımağa başlamaqdadır və təbii ki, burada da İlqar bəyin böyük təcrübəsinin, sazın, həmçinin tarın tədrisindəki praktik fəaliyyətinin, metodik tövsiyələrinin yararlı olduğuna inanırıq.

İlqarın aşıq sənəti və şerinə, eləcə də ümumiyyətlə xalq yaradıcılığı və mənəvi mirasına olan dərin həvəsi heç də təsadüfi deyil. O, hələ çox erkən yaşlarından sənətin, şerin hökm sürdüyü bir mənəvi mühitdə böyüməyə, qol - qanad açmağa başlamışdır. Azərbaycanın ziyalı alimlərindən biri olan şair təbli atası Cəmil Əkbər (Bax: Şəkil № 1) xalq poeziyası və



Şəkil № 1 Cəmil İmamverdi oğlu Əkbər (15.09 1928 – 12.03 2000)

şeirinə olduqca düşgün bir adam idi. Xüsusilə də aşıq poeziyasını, burada olan şer formalarını gözəl bilirdi. Onun sənət adamlarına olan hörmət və izzəti sonsuz idi və evindən bu qəbildən olan qonaqlar əksik olmazdı. İlqarın özünün də etirafına görə atası Cəmil Əkbər o dövrün tanınmış şairləri və ədibləri ilə şəxsən tanış idi və onların əsərlərini müdafiə etməkdən yorulmazdı. İxtisasca H.B.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun tarix fakultəsini əla qiymətlərlə bitirən *(1949)* Cəmil Əkbəri institutun qərarı əsasında təhsil aldığı həmin ali məktəbdə müəllim vəzifəsində işə qəbul edirlər. Bir ildən sonra həmin ali qurumun rəhbərliyinin qərarı əsasında Cəmil Əkbər Moskva Lomonosov adına Universitetə ixtisasdəyişmək üçün ezam etdilər. İxtisasca tarixçi olan Cəmil Əkbər 1950-51-ci ildlərdə ixtisasdəyişmə kursunu uğurla tamamlayıb iqtisadiyyatçı alim kimi Moskvadan həmin instituta geri dönür. Bir iki il çalışdıqdan sonra Cəmil Əkbər Pedaqoji institutdan nəql yolu ilə Gəncə S.A.Ağamalıoğlu adına Kənd - Təsərüfatı institutuna *(Hal - hazırda Azərbaycan Dövlət Aqrar Universiteti)* dəvət olunaraq ömrünün sonuna kimi iqtisadçı alim olaraq həmin ali təhsil ocağının siyasi - iqtisad kafedrasında fəaliyyətini sürdürür. Cəmil Əkbər 1964-cü ildə namizədlik disertasiyasını Bakıda uğurla müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsinə, bir qədər sonra isə dosent vəzifəsinə yüksəlir. Cəmil Əkbər şərəfli ömür yolunda sənətə, xüsusilə də poeziyaya olan sevgisini itirməmiş, bu sahədə diqqət ediləcək müvəffəqiyyətlər əldə etmişdir. Onun bir çox şerlərində elcə də "Yaşadar səni" *(Gəncə, 1997)* adlı kitabdakı misraları gözəl misal ola bilər. İlqar hələ kiçik yaşlarından bu şerlərin təsiri altında boya - başa çatmış, kamilləşmişdir. Öyüd - nəsihət dolu bu şerlərdə eyni zamanda xalqımızın ulu keçmişinə, zəngin mənəvi etik misrasına, xüsusilə də ozan - aşıq yaradıcılığına olan sevgi hissləri yüksək poetik bir dillə tərənnüm edilmişdir. Təsadüfi deyil ki, İlqar bu gün də müxtəlif toplantılarda, musiqi gecələrində atasının bir çox gözəl misralarını da söyləməkdən doymayır.

Hər yetənə igid demə, nər demə,
Sərraf demə, zərgər demə, zər demə.
Ona-buna böhtan demə, şər demə,
Öyrənib halını bilənə kimi.

Yanımda durmayıb getsən yaxşıdır,
Özgə bir diyarda ötsən yaxşıdır,
Cəmilin gözündən itsən yaxşıdır,
Yalandan üzümə gülənə kimi[3].

Cəmil müəllimin evində daima şer və sənətlə bağlı şirin söhbətlər gedərdi, Aşıq Şəmşir, Miskinli Aşıq Vəli, (Bax: Şəkil № 2, № 3), Aşıq Mikayıl Azaflı, Hüseyn

Şəkil № 2. (Soldan sağa) Miskinli şair Vəli Bayramov, Aşıq Şəmşir Qurban oğlu Qocayev, Cəmil İmamverdi oğlu Əkbər.1963-cü il./ Gəncə.

Saraclı, Aşıq Əmrah Gülməmmədov, Aşıq Sirac kimi ustad sənətkarlar, Şair Bəhmən Vətənoğlu, Əli Qurbanov bu evin mötəbər qonaqları idi. Təbiidir ki, bu söhbətlər, eləcə də bu

Şəkil № 3 (soldan sağa) Şair Cəmil Əkbər və Əməkdar İncəsənət Xadimi Şəmşir Qurban oğlu Qocayev. Cəmil Əkbərin 15 yaşlı kiçik oğlu, İlqar Cəmil oğlu İmamverdiyev. Foto 1970-ci ildə Dədə Şəmşirin Cəmil Əkbərin evində müsafir olduğu vaxt, böyük oğlu Zakir İmamverdiyev tərəfindən çəkilmişdir.

görüşlərdə səslənən telli sazın sədaları uşaq yaşlarından musiqi sənətinə xüsusi tutqusu olan İlqara olduqca böyük təsir göstərirdi.

Bu gün də söylədiyi bir çox şerin, eləcə də çaldığı bir çox aşıq havasının o əlamətdar günlərin xoş yadigarı olduğunu söyləmək mümkündür. İlqarın ifa etdiyi saysız-hesabsız aşıq havaları öz üslubuna görə ən qədim klassik ənənələri davam etdirir, bir daha xalqımızın nə qədər zəngin musiqi təfəkküründə sahib olmasını göstərə bilir. Praktiki olaraq bütün məlum aşıq havalarını bilən və daima bu sahədə axtarışlar aparan günümüzdə unudulmuş bəzi havaları İranda belə axtarıb tapa bilən İlqar, bununla belə heç bir vaxt arxaizmə yuvarlanmır, keçmişin ifa prinsiplərini olduğu kimi təqlid etmir, zamanın intonasiya, metro - ritm kimi təsvir - ifadə vasitələrindən də məntiqi bir şəkildə faydalanmağa çalışır. Onun ifa tərzində

[3] Cəmil Əkbər , "Kimi", "Yaşadar səni", Bakı, 1997, s. 89.

keçmiş ilə müasirliyin əlaqəsini hiss etmək çətinlik törətmir. Təsadüfi deyil ki, sırf belə bir üslubuna görə İlqarın çaldığı ən əski klassik aşıq havaları müasir dinləyiciyə, eləcə də aşıq musiqisi ilə tanışlığı olmayan kimsələrə belə böyük estetik həzz gətirə bilir. İlqarın ifasında səslənən "Osmanlı Divani", "Yanıq Kərəm", "Göyçə gözəlləməsi", Göyçə gülü", "Dilqəm", "Ürfani", "Cəlili", "Hüseyni", "Misri" və s. kimi klassik havaları xüsusilə misal çəkmək olar. Bu havaların ifasında İlqarın peşəkar ifaçılıq məharəti ilə birlikdə onun mahnıların idea - məzmunundan doğan kompozisiya və forma meydana gətirmək məharəti də aşkar olunur. Bu aşıq havalarını dinlərkən gözümüz önündə xalqımızın tarixini, həyat tərzini, istək - arzularını, mənəvi - əxlaqi ideallarını ifadə edən lövhələr canlanmaqdadır. İfaçı klassik aşıq havalarına xas dərin fəlsəfi məzmunu, yüksək lirizmi, əlçatmaz dramatizmi, sosyal yönlülüyü heç bir zaman unutmur və daima bu xüsusiyyətləri vurğulamağa çalışır. Bundan ötrü aşıq ifaçılıq sənətini bütün estetik imkanlarından məharətlə istifadə etməyə çalışır. İlqarın həqiqətən də filiqran texnikası *(təsadüfi deyil ki, tanıyanlar onu məşhur İtalyan skripka çalanı N.Paqanini ilə belə müqayisə edir, onu "sazın Paqaninisi" deyə adlandırırlar),* nüanslardan məharətlə istifadə edə bilmə qabiliyyəti, klassik melizmlərlə *(xallarla, güllərlə, haşiyələrlə)* birlikdə yeni - yeni təsvir - ifadə vasitələrindən məntiqi bir şəkildə faydalana bilməsi, kompozisya və forma istedadı yuxarıda göstərdiyimiz bədii - estetik məsələləri həll etməsinə səbəb olur. Həqiqətən də məhz bu xüsusiyyətlərə görədir ki, İlqar məsələn, "Yanıq Kərəmi" çalarkən buradakı əbədi sevgidən doğan dərin kədəri, üzüntüyü, psixoloji sarsıntını, lirik - dramatik ruh halını, "Koroğlu Cəngi" çalarkən isə xalqımızın qəhrəmanlıq keçmişini, mərdliyini, cəsurluğunu, yenilməzliyini və s. göstərən lövhələr yaratmağa çalışır. Adətən İlqar bu aşıq havalarının idea - məzmununun daha yaxşı açılması üçün dastanlarımızdan alınmış misralara da müraciət etməli olur. Burada da onun dastanlarımızı ən içdən bilməsi, bu və ya digər aşıq havalarının dastanlarımızda məntiqi olaraq nə zaman və harada istifadə olunması zərurətini duya bilməsi kimi mərifətləri özünü göstərir. Hər nə qədər təəccüblü olsa da İlqarın sazda ardıcıl bir təhsil almasını və ya hər hansı bir ustad aşığın yanında müntəzəm olaraq şagirdlik etməsini söyləməkdə çətinlik çəkirik. Əslində onun bu sevimli musiqi alətinə meyl göstərməsinə səbəb və ilk müəllimi də atası Cəmil müəllim olmuşdur. Gələcəkdə daima ustad aşıqların yaradıcılığını, onlarca ifa tərzini dərindən izləyən İlqar bu aşıqlardan, eləcə də müxtəlif aşıq məktəblərinə xas *(Borçalı, Qazax, Şəmkir, Gədəbəy, Şirvan və s.)* ifa üsullarından çox şey öyrənmişdir. Təsadüfi deyil ki, Aşıq Qurbaninin, Aşıq Ələsgərin, Xəstə Qasımın, Aşıq Şəmşirin, Aşıq Mikayıl Azaflının, Aşıq Əmrahla, Aşıq Kamandarın və başqalarının adları ağzından düşmür, onların hər birinə xas yaradıcılıq dəst - xətti, repertuar zənginliyi, ifa üsulları, aşıq havalarını məharətlə çalmaqla birlikdə onları gur bir səslə oxuya bilmək qabiliyyətlərini mükəmməl bir şəkildə mənimsəməsini öz sənəti ilə nümayiş etdirir. Sənətinə son dərəcə ciddi bir münasibət bəsləyən və hər gün ən azından üç - dörd saat məşqlər keçirən İlqardan nəyə görə aşıq mahnılarını yalnız çalmaqla kifayətləndiyini, onları oxumadığını soranda, o, adətən bir ah çəkib deyir ki, ömrüm boyu aşıq sənətinin o qədər gözəl səsə sahib sənətkarlarını görmüşəm ki, onları xatirimə gətirdikcə həyəcan keçirirəm, bu səviyyədə oxuya bilməyəcəyimi hiss edirəm, özümü onların yüksək sənətlərinə və ruhlarına xəyanət etmiş kimi görürəm. Əslində isə bu təvazökarlıq aşıq sənətinə, xüsusilə də buradakı spesifik oxuma mədəniyyətinə olan dərin hörmətdən, sevgidən irəli gəlməkdədir. Çünki çox nadir hallarda və yaxın dostları arasında oxuduğu bir çox aşıq mahnıları İlqarı dinləyənlərin

də etirafına görə *(bu misraların müəllifi də həmin fikrə şərikdir*) onun ifasında olduqca mükəmməl səslənir və xoşa gəlir. Bununla belə İlqar aşıq mahnılarını oxumamaqda israrlıdır. Lakin bütün gücünü instrumental ifaçılığa vermiş olan ifaçı eyni zamanda aşıq havalarının klassik oxuma (vokal) tərzindən, danışıq intonasiyasından, burada istifadə olunan şer formalarının ritmik xüsusiyyətlərindən və s. yaradıcılıqla istifadə etməyə çalışmaqdadır. Zənnimizcə İlqarın ifaçılıq yaradıcılığının realizmi, novatorluğu və özünəməxsusluğu heç şübhəsiz, müəyyən dərəcə bu yuxarıda söylədiyimiz cəhətlərlə də əlaqədardır.

Aşıq sənəti tarixində çalmağı, oxumağı, dastan söyləməyi, şer qoşmaq bacaran sənətkarlar az olmamışdır. Fəqət bu göstərdiyimiz sənət sahələrinin birinə və ya ikisinə meyl göstərmiş sənətkarlar da yox deyildir. İlqar da əsasən aşıq ifaçılığına daha çox meyl göstərən sənətkarlarımızdandır. Eyni zamanda bu sahədə çığır açan, sazın texniki - estetik imkanlarını genişləndirməyə çalışan sənətkarlarımızdandır. O, sazın zəngin ifadə - təsvir imkanlarına malik olmasını, həmçinin də ən mürəkkəb və müasir musiqi əsərlərinin ifasını gerçəkləşdirməyə qadir bir musiqi aləti olduğunu hər vasitə ilə, öz ifaçılıq məharəti və nəzəri mülahizələri ilə sübut etməyə çalışmaqdadır.

İlqar müasir aşıq ifaçılıq sənətinin gözəl nümayəndələri arasında tanınmış Aşıq Ədaləti xüsusilə yüksək dəyərləndirir. Ən gənc yaşlarından bu nadir şəxsiyyətin fitri istedadına, yüksək ifaçılıq məharətinə, virtuoz texnikasına, keçmişin zəngin estetik mirasına olan dərin bağlılığına heyranlıqla baxmış, ondan çox şeylər öyrənmişdir. Özünün "Saz dünyalı sənətkar" adlı məqaləsində Aşıq Ədalət sənətinin sirrilərini aydınlaşdırmağa çalışan müəllif bir daha qeyd edir ki, "*Ədalət sənətinin sirri, sehri və möcüzəsi ondadır ki, xalq ruhunun musiqi inikası olan saz havalarına yeni biçim, yeni məna və dad vermişdi. Ona görə də Ədaləti dinlədikcə insan adi bir musiqiyə qulaq asmır. Min bir çalarlı təbiətin laylasına uyaraq xəyalən "dünyasını dəyişir", özümdən asılı olmayaraq özünü tamam başqa bir alımdə hiss edir. Elə bir aləmdə ki, hicranı da, vüsalı da hər bir kəsə ləzzət verir".*[4]

Bu ürək sevgisi və peşəkarlıqla yazılımış məqalə əslində İlqarın yaradıcılıq kredosu, ifaçılıq sənətinin bədii - estetik prinsiplərini necə başa düşməsi də aydın olur. Burada Aşıq Ədalət şəxsiyyəti və sənəti ilə əlaqədar söylənmiş sözlərin çoxunun onun özü üçün də aid etmək mümkündür. *"Ədalətin çalğısı bir ölçü-biçiyə, standarta uyğun gəlməyən, ona çatmayan ifaçılıqdır. Onun qeyri-adi gedişatlarda etdiyi improvizasiyalarda Məcnun dəliliyi, Leyli vurğunluğu vardır. Onun hər bir ifası yeni bir bəstə, yeni bir musiqi, yeni bir sənət möcüzəsidir. Çox təəssüflər olsun ki, biz onları yığıb-yığışdırıb, ipə-sapa düzüb bu sənət incilərini xalqa daha çox çatdıra bilmirik. "İnsafsız" Ədalət isə o inciləri gül-çiçək çələngi tək hara gəldi, harda gəldi səpir... Bizlər isə bu fövqəltəbii hadisəyə "bəh - bəh" deməklə kifayətlənirik. Elə bilirik ki, bu həmişə belə olacaqdır..."* [5]

Çox qəribədir ki, İlqar çoxsaylı konsertlərində, çıxışlarında geniş dinləyici kütləsinin istəyi üzərinə ifa etdiyi aşıq havalarının zənginliyi və yüksək bədiiliyi ilə seçilən ifası hər zaman insanı valeh edir və düşündürür. Ağla nədənsə eynilə yuxarıda İlqarın söylədiyi sözlər gəlir. Və təəssüf edirsən ki, artıq püxtələşmiş və yaradıcılığının ən məhsuldar çağını yaşayan

[4] Sazın Ədalət dünyası *(tərtibçi-müəllif Elbrus Məmmədov).* "Azərnəşr", Bakı - 1999, s. 398.
[5] Sazın Ədalət dünyası *(tərtibçi-müəllif Elbrus Məmmədov)*, "Azərnəşr", Bakı - 1999, s. 400.

bu nadir sənətkarın ifaçılıq sənəti istənilən səviyyədə təbliğ edilmir, daha doğrusu video-kasetlərə, lentlərə, televiziya verilişlərinə keçmir. Əlbəttə böyük sənətkarların yaradıcılığı xalqın, ictimaiyyətin diqqətindən yayınmır və tez - gec onun rəğbətini qazanmış olur. Lakin İlqarın öz sənətini xalq arasında yaymaqdan ötrü göstərdiyi inanılmaz şəxsi səylərini də göz ardı etmək olmaz. Ən mötəbər konsertlərlə birlikdə o, hər bir yaxın dostunun, bəzən isə o qədər də yaxşı tanımadığı bir insanın məclislərində təmənnasız olaraq iştirak etməkdən çəkinmir. Bəzən bir gündə bir neçə müxtəlif yerlərdə çalmağının şahidi olursan. Heç bir zaman da onun ağzından yoruldum kəlməsini eşitmək olmur. Çünki İlqar bu cür konsertlərdə Azərbaycan musiqisini, onun nadir incilərini geniş dinləyici kütləsi arasında yaymağı bacarır və əslində elə bu, onun ən böyük arzularındandır. Bu arzunun gerçəkləşdirilməsi yolunda o hər şeydən vaz keçə bilir, öz sağlamlığından belə ... Dinləyiciləri ilə olan görüşlərində onlarca klassik aşıq havaları ilə birlikdə, ümumiyyətlə zəngin musiqi folklorumuzun nümunələrinə, Türkiyədə olduğu müddətdə eyni zamanda bir çox hallarda mürəkkəb ritrmik xüsusiyyətlərinə görə seçilən Türk xalq şarkılarına (mahnılarına) müraciət edən İlqar onları özünə xas bir şəkildə, professional bəstəkarlar tərəfindən belə yorumlanmış mahnıların və əsərlərin İlqarın ifasında yeni - yeni çalarlarla, təsvir - ifadə vasitələri və mən deyərdim, virtuoz passajlarla yeni bir estetik keyfiyyət qazanmışdır. Məsələn, Təsadüfi deyil ki, Türk bəstəkarı Ərdal Tuqçuların "Kəmənçədən - kamana" əsərini Ərzurum Atatürk Universitetinin möhtəşəm konsert salonunda ifası *(aprel 2002)*, dinləyicilərin və mütəxəssislərin böyük marağına səbəb oldu. Bu qəbildən olan misalları *(onların sayını artırmaq da olar)* gətirməklə, eyni zamanda İlqarın da Aşıq Ədalət və digər tanınmış və öz işini mükəmməl bilən sənətkarlarımızın gerçək dəyərini vaxtında anlamaq, vaxtında dəyərləndirə bilmək məqsədini güdmək arzusundayıq.

İlqar aşıq sənətini yalnız ifaçılıq sənəti kimi başa düşmür. Dərin keçmişə, idraki - tərbiyyəvi funksiyalara malik bu sintetik musiqili - poetik yaradıcılığın bütün nəzəri - estetik problemlərinin tədqiq olunmasını vacib bilən İlqar özü də bu sahədə ciddi addımlar atmaqdadır. Onun yuxarıda da qeyd etdiyim kimi sənətşünaslıq üzrə namizədliyini və doktorluğunu müdafiə etmiş dissertasiyaları *("Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri","Azərbaycan və İran Türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri"),* eləcə də məqalələri buna gözəl misal ola bilər. Bu əsərlərdə aşıq sənətinin bir çox məsələləri, Azərbaycanda onun hüdudlarından uzaqlarda bu sənətin yayılması, müxtəlif aşıq məktəblərinin mövcud olması, xalq şənliklərində, bayram və mərasimlərdə aşıq sənətinin yeri və rolu, unudulmuş, bəzən bu və ya digər səbəblər üzündən antologiya xarakterli kitablarımıza daxil olmayan aşıqları, onların şerlərinin üzə çıxarılması kimi məsələlər yer almaqdadır. "*Eyni zamanda burada aşıq musiqisinin spesifik xüsusiyyətləri, lad, metro - ritm, ifa üsulları, təsvir - ifadə vasitələri, sazın müxtəlif cürə köklənmə yolları və bu kimi elmi - nəzəri və biz deyərdik, hələ də tam şəkildə öz həllini tapmamış məsələlər tədqiqi edilməkdədir."*[6]

[6] Bax: Aşıq havalarında çoxvariantlığın səbəbləri, Mədəni-Maarif, Bakı, 1990, № 4:, Azərbaycan sazının kök xüsusiyyətləri, Bakı, 1992:, Aşıq ifaçılığının bəzi xüsusiyyətləri, Mədəni-Maarif, Bakı, 1993, № 3-4:, Azərbaycan xalq mahnı sənətində aşıq havaları, Bakı 1996:, XX əsr Cənubi Azərbaycan aşıq mühiti və bəzi məsələləri, Türkiyat Araşdırmaları dərgisi, sayı 19, Ərzurum-2002 və s.

İlqar klassik muğam sənətini də dərinlikərinə kimi bilən bir sənətkardır. Ən uşaq yaşlarından F.Əmirov adına 1 saylı Gəncə şəhər uşaq musiqi məktəbindən və Q.Hüseynli adına Gəncə musiqi texnikumundan başlayaraq Üz.Hacıbəyli adına Konservatoriyada oxuduğu illər ərzində tar üzrə professional təhsil almaq imkanı əldə edə bilmişdir. İlqar, tar alətinə xüsusi sevgi oyandırmış muğam ustadı Fazil Əlizadəni, not ixtisasından dərs demiş Həqiqət Hüseynovanı xüsusi bir sevgi və hörmət ilə hər zaman yad edir.

Gələcəkdə Hüseyn Verdiyev, İlham Dilbazi, Prof. Oqtay Quliyev kimi tar ustalarından dərs aldığını, eləcə də ustad tarzənlərin *(Qurban Pirimov, Əhməd Bakıxanov, Bəhram Mənsurov, Hacı Məmmədov, Əhsən Dadaşov, Sərvər İbrahimov, Firudin Yarməmmədov, Kamil Əhmədov və başqalarının)* yaradıcılığından bəhrələndiyini etiraf etməkdən çəkinmir. Uzun illər *(1981 - 2000)* Azərbaycan Dövlət Konservatoriyasında *(Bakı Musiqi Akademiyası)* bir müəllim kimi çalışdığı illər ərzində də bir çox tanınmış muğam ustaları ilə şəxsi təmasları ona çox şey vermişdir. Xüsusilə tanınmış bəstəkarımız, musiqi mədəniyyətimizin layiqli nümayəndəsi, Üzeyir Hacıbəyli ənənələrinin ardıcıl davamçısı olan Prof. Süleyman Ələsgərovdan çox şeylər öyrəndiyini etiraf edən İlqar təsadüfi deyil ki, bu sənətkarın yaradıcılığına olan dərin sevgisini hər zaman ifadə etməkdədir. Müxtəlif konsertlərdə Süleyman müəllimin əsərlərini ifa edən İlqar, bəzən bu bəstəkarın instrumental və hətta vokal *(mahnılarını)* əsərlərini tar və saz üçün yorumlamaq yolunda da çox işlər görməkdədir.

İlqarın klassik aşıq havaları kimi klassik muğamlarımızı da gözəl bilməsi, onları professional bir tərzdə və ənənələrə sadiq olaraq ifa etməsini də söyləmək mümkündür. Bu alətin sevilməsi, müasir mədəni həyatımızda, hətta digər məmləkətlərdə belə özünə layiq bir yer tutması üçün əlindən gələni əsirgəmir. Klassik muğamlarımız və digər folklor nümunələrimizin ifası və geniş təbliği ilə birlikdə tar üçün yazılmış əsərlərini də tez - tez konsert salonlarına gətirir, onların geniş bir şəkildə təbliğinə çalışır. Bəzən bəstəkarlarımızın, hətta mürəkkəb bir dillə yazılmış əsərlərinin belə İlqar tərəfindən tarda səsləndirilməsinin də şahidi oluruq. Bu əsərlərin çoxunu tar üçün İlqarın özü aranjiman etməkdədir. Bəzən bu konsertlərdə Batı Avropa bəstəkarlarının da əsərləri səsləndirilməkdədir. Heç şübhəsiz, onların da çoxunu İlqar özü tar üçün xüsusi olaraq yenidən işləmiş, bəlkə də ilk dəfə səsləndirmişdir. Bu əsərlər arasında Üz. Hacıbəylinin, Q. Qarayevin, F. Əmirovun, S. Rüstəmovun, T. Quliyevin, A. Məlikovun, S. Ələsgərovun və başqa Azərbaycan bəstəkarlarının əsərləri ilə birlikdə, eyni zamanda bir çox Batı Avropa və Türk bəstəkarlarının əsərləri də mühüm yer tutmaqdadır. İnsanı heyran qoyan bu zəngin repertuar bir yandan geniş dinləyici kütlələri arasında musiqimizi və ümumiyyətlə dünya musiqi mədəniyyətini yaymaq məqsədinə xidmət etməklə birlikdə, digər tərəfdən heç şübhəsiz, tarın geniş potensial - estetik və texniki imkanlarını nümayiş etdirmək istəyindən irəli gəlməkdədir. Tarı bütün dünyada tanıtmaq, sevdirmək bəlkə də İlqarın ən böyük sənət arzularındandır. Onun Türkiyədə, Atatürk Universitetində bu alətin tədrisi üçün göstərdiyi təşəbbüs və ardıcıl fəaliyyət söylədiklərimizi təsdiqləməkdədir. Bu alətin bəzi Türk vətəndaşları, musiqi həvəskarları arasında tədrisini təmənnasız olaraq həyata keçirməsi faktı da inkaredilməz bir gerçəkdir.

İlqar saz kimi tarın da ifaçılıq imkanlarını daima genişlənməsi, təsvir - ifadə vasitələrinin zənginləşməsi problemləri üzərində düşünən bir sənətkardır. Bəlkə də bu meyl tarın artıq sadəcə olaraq yalnız əski klassik musiqi nümunələrini əzbərdən, şifahi bir şəkildə,

ənənələrə uyğun olaraq, onlara ciddi bir şəkildə riayət edərək ifa oluna bilən bir alət olaraq görmək istəmədiyindən irəli gəlir. Notlara əsasən səslənə bilən, ən mürəkkəb əsərlərin ifasını həyata keçirə bilən, zəngin melizmatikaya, təsvir - ifadə imkanlarına, gözəl tembrə *(səs tonuna),* yüksək texniki imkanlara və s. malik olan tarın müasir dünya musiqi mədəniyyətinin inkişaf prosesində də yaxından iştirak edə bilmə haqqını haqlı olaraq müdafiə edən İlqar, eyni zamanda bu alətin texniki baxımdan bəzi yeniliklərə uğraya bilməsini də zəruri sayır. Onun tara bəzi əlavələr etməsi, pərdələrinin artırılması (*hətta bəzən pərdələrin tamamilə aradan qaldırılması* [7]), skripka alətində olduğu kimi fikslərin istifadə olunması, sarı simdə belə bir neçə səsin səsləndirilə bilməsi kimi fikirləri bəzilərinin narazılığına səbəb olsa da, əslində yuxarıda söylədiyimiz əsas arzudan irəli gəlməkdədir. Əsasən tarın rekonstruksiyası, ona ola biləcək yeni əlavələr ilə əlaqədar fikirlərini irəli sürən İlqar onları praktiki olaraq öz tarı ilə nümayiş etdirməkdədir. Xüsusilə də onun Avropada və Türk cümhuriyyətlərində musiqi tədrisi ilə əlaqədar Ankarada *(13 - 16 noyabr 2002)* keçirilmiş Beynəlxalq Konqresdəki çıxışında bu məsələlər ifadə olunmuş və dinləyicilərin marağına səbəb olmuşdur. Zənnimcə İlqarın, eləcə də bəzi tanınmış sənətkarlarımızın, xüsusilə də tarzən Həmid Vəkilovun bu sahədəki axtarışları, yenilikləri məhz tarın müasir mərhələdə dünya musiqi prosesində iştirak edə bilməsi, digər Avropa və dünya musiqi alətləri kimi bir səviyyədə dura bilməsi yalnız lokal deyil eyni zamanda da daha qlobal bir mədəni prosesdə də iştirak edə bilməsi, ən mürəkkəb bədii hadisələri gerçəkləşdirə bilməsi kimi xoş istəkdən qaynaqlanmaqdadır.

İlqarın bu arzusu saz kimi əsrlərdən gələn alətimizə də aiddir. Yuxarıda bununla əlaqədar fikrimizi bildirmişdik. Bu iki musiqi alətimizə olan dərin sevgini ifadə etmək üçün İlqar tez - tez Göyçəli Aşıq Məhəmmədin aşağıdakı sözlərinə müraciət edir.

Vəfalı dost tək - tək olar,
İnsanlarda yüzdə birdi.
Sən arzula can sağlığı,
Çox da birdi, az da birdi.
x x
Bülbül ötər, qış keçəndə,
Ovçu yanar, boş keçəndə,
Kimin günü xoş keçəndə,
Qış da birdi, yaz da birdi.
x x
Məhəmmədəm düşdüm xəstə,
Canım qurban yaxşı dosta,
Eşqin olsa sinən üstə,
Tar da birdi, saz da birdi.

Artıq İlqar öz həyatını bu iki alətdən ayrı təsəvvür belə edə bilmir. Bu iki alət vasitəsilə musiqi mədəniyyətimizin ən gözəl nümunələrini mükəmməl bir şəkildə ifadə etmək, geniş təbliği işində yaxından iştirak edə bilmək yolunda yorulmaz fəaliyyət göstərməkdədir. Tamamilə təbiidir ki, onun bu çox yönlü fəaliyyəti, ifaçılıq sənəti və yaradıcı şəxsiyyəti haqlı olaraq elm və sənət adamlarının diqqətindən yayınmır. Bu baxımdan son dövrlər meydana

[7] Bu ən icə səslərin, komaların asanlıqla ifa oluna bilməsinə xidmət edə bilərdi.

gəlmiş yazıları, əlamətdar hadisələri xatırlatmaq da zəruri görünür. Ədəbiyyatşünaslıq və folklor yaradıcılığı sahəsindəki tanınmış alimlərimizdən sayılan bu günlərdə 6 cildlik İran Azərbaycan Ədəbiyyatı Antologiyası kimi fundamental bir əsəri ortaya qoymuş [8] Əli Kafkasyalının İlqar İmamverdiyevin yaradıcılıq yoluna həsr edilmiş məqaləsi xüsusi maraq doğurur. Məqalədə İlqar sənətini, onun ifaçılıq fəaliyyəti və şəxsiyyətini Türkiyədə də işıqlandırmışdır. Son dərəcə zəhmətkeş, təvazökar, bir sənət adamı kimi sosyal məsuliyyət və ləyaqət hissini heç bir zaman itirməyən İlqar İmamverdiyevin bundan sonra daha yüksək estetik zirvələr fəth edəcəyinə ürəkdən inanırıq. Əli bəy eyni zamanda bu nadir sənətkarımızın yaradıcılığına yüksək dəyər verməkdən də çəkinmir. O. bu yazısında bir daha xatırladır ki, "*İlqar İmamverdiyev tələbəlik və müəllimlik illərində bir çox fəaliyyət göstərmiş, Təbriz, Urmiya, Bağdad, Ankara, İstanbul, İzmir, Ərzurum, Qars, Roma, Neapol, Sank - Peterburq (Leninqrad), Moskva, Daşkənd, Səmərqənd, Alma - ata, Tiflis, Yerevan kimi dünyanın bir çox mədəniyyət mərkəzlərində konsertlər vermiş, müxtəlif beynəlxalq yarışmalarda iştirak etmiş və bir çox müvəffəqiyyətlərə imza atmışdır*"[9].

Azərbaycanın tanınmış rəssamı Əməkdar İncəsənət Xadimi Elmaz Mehdioğlunun [10] yağlı boya ilə İlqarın portretini çəkməsi və Ərzurumda təşkil olunmuş bir sərgidə (Ərzurum aprel 2002) onu nümayiş etdirməsi də İlqar sənətinə və şəxsiyyətinə olan dərin hörmət və inamdan irəli gəlməsini söyləmək mümkündür.

Hal-hazırda tarda, sazda, bağlamada, udda demək olar ki, eyni bacarıqla ifa məharəti göstərən İlqar bəy, müasir Azərbaycan musiqi mədəniyyətinin öndə gələn simalarından birinə çevrilmişdir. O eyni zamanda müəyyən imkan çərçivəsində Türkiyə Cümhuriyyətinin, xüsusilə də Doğu Anadolunun musiqi həyatına belə yeni rəng, yeni təravət qatmışdır. Onun Türk Azərbaycan musiqi mədəniyyətinin qarşılıqlı zənginləşməsi prosesindəki yeri və rolu günbəgün artmaqdadır. Son dərəcə zəhmətkeş, təvazökar, bir sənət adamı kimi sosyal məsuliyyət və ləyaqət hissini heç bir zaman itirməyən İlqar İmamverdiyevin bundan sonra daha yüksək estetik zirvələr fəth edəcəyinə ürəkdən inanırıq.



Prof. Dr. BABƏK QURBANOV
(Musiqi estetikası üzrə) Fəlsəfə Elmləri Doktoru,
SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının Üzvü
23. 09. 2007 / Ərzurum

[8] Ali Kafkasiyalı. İran-Türk Edebiyatı Antolojisi (6 cilddə) Erzurum, 2002.
[9] Ali Kafkasiyalı.Doç.Dr. İlgar İmamverdiyev, "Palandöken", qəzeti, 22 Temmuz (iyul), Ərzurum 2002.
[10] Rəssam hal-hazırda Türkiyədə Ərzurum Atatürk Universitetində fəaliyyət göstərməkdədir.

MİLLİ MUSİQİMİZİN QORUNMASI ÜÇÜN NOTA YAZILMASI ÖNƏMLİDİR

Allahın yaratdıqları əşrəfi - məxluqat dəyərində olan insanlar elə bir varlıqdır ki, ilhamı sayəsində və möcüzəli fəaliyyətləri, konkret qeyri-adi əməli xidmətləri sayəsində yaratdıqları heyrətamiz əl işləri ilə bu cahana yaraşdığını tarixin hər dönəmində zaman-zaman sübut etmişdir. Heykəltəraşlar tarixə nəqş etdikləri heykəlləri ilə, rəssamlar çeşidli boyalarla tablolara çəkdikləri, milyonlarla dəyərə sahib heyrətamiz şəkilləri ilə, memarlar qədim tarixə malik sənət nümunələri ilə, inşaatcılarımızın on illərlə saldıqları tağı, dayağı möhkəm, sütunu mükəmməl körpülərlə, düşmən sipəri olan uca qalalarla, möhtəşəm görünüşlü qəsrlərlə, əzəməti ilə bir-birindən fərqlənən abidələrlə, zərgərlərin çəkidə kiçik, qiymətdə ağır olan maddi zinət əşyaları bu gün də heyrətamizliyi ilə bəşər insanını məftun etməkdədir. Allah vergisi hesab edilən bir qrup qabiliyyətli, istedadlı şəxslər isə Nizami Gəncəvi, Firdovsi, Xaqani, Nəvai, Fizulu, Nəsimi, Nəvai, Hafiz Şirazi, Sədi Şirazi kimi xalqına, millətinə, ən nəhayət bu cahana ərməğan etdikləri dərin mənalı hikmətli şeirləri, mənəviyyatımızda mühüm rol oynayan nadidə əsərləri ilə bu cahanda təravətini hifz edərək əsrlərlərlə yaşamışlar. İbn Sinalar, Loğmanlar, Birunilər, Tusilər isə elmi tədqiqat əsərləri ilə gələcəyə yol göstərmişlər. Məhəmməd Peyğənbərimizə (s.s) gələn Haqqın ilahi vəhyidir ki "Quran'ın" ayələri tədricən yer kürəsinə nazil olmuşdur. Bu vəhyin digər əlamətləri isə gah yazıçıların romanlarında, hekayələrində şairlərin şeirlərində, gah da bəstəkarların qeyri-adi ruhu ilə səslənən musiqi əsərlərində özünü göstərmişdir. Təbii ki, Haqq tərəfindən təkcə nadir insanlara bəxşiş edilmiş, ilhamı sayəsində yaranan yaradıcılıq nümunələrinə heç bir söz ola bilməz. Çünki bu incilər Haqqın lütfü və kəraməti ilə cılalanıb, ən yüksək dərəcədə redaktə olunduqdan sonra nəhayət Avesta kimi dərilərə, sonralar vərəqələrə yazıaraq Homerin "İlliada" və "Odisseya" kimi möhtəşəm əsərləri kimi işıq üzü görmüş, İ. S. Baxın, V. A.Motsartın, L. V. Bethovenin not kağızlarında əbədiləşmiş, neçə yüzillərdir ki, dünyanın hər yerində "Simfoniya", "Opera", "Kantata", "Konsert", "Opera" və s. kimi musiqi janrlarında bu gün də məşhur musiqiçilər tərəfindən dünyanın bütün ölkələrində əzəməti, ihtişamı ilə səsləndirilməkdədir. Onu da qeyd etməliyik ki, bu ilham sahiblərinin çoxu, onlara gələn melodiya şəklindəki vəhyi nota yaza bilmədikləri üçün xalqımız tərəfindən sevilən bu qəbildən olan musiqilər, zaman zaman anonimləşərək müəllifləri unudulmuş, tədricən tarix səhifəsində adı silinərək nə yazıq ki, qeyb olub getmişdir. Həmin andan da bu qəbildən olan musiqilər illər keçdikcə ümumi bir adla: "Xalq mahnıları" - deyə adlandırılmağa başlanmışdır. Hətta bu anonim musiqilərimiz, "Xalq

mahnıları”mız da toy - düyünlərdə, el şənliklərində gedərək az ifa olunmaqla müəllifi kimi, melodiyalar da yaddan çıxmağa başlamış, nadir hallarda isə sadəcə musiqinin adı qalmışdır. Bütün bunlar acınacaqlı olsa da təəssüf ki, gerçək həqiqətdir. Minlərlə musiqilərimiz bəlkə də belə bir tale ömrü yaşamışdır.

Xalq mahnılarımız xalq ruhunun ifadəsi, olub millətin fərqli ovqatının təcəllisidir. Bu incilər insan düşüncəsinin, onun hər cür ruh halının əks sədası, melodik dillə tərcümanı və təzahürüdür. Bu musiqi mücövhərlərimizin qoruna bilməsi üçün onların nota yazılması, ifa olunaraq səsləndirilməsi, lent yazılarına alınması mühüm əhəmmiyyətə malikdir. Hər bir xalq əsərinin vaxtında nota yazılması, zamanında səsləndirilməsi, ifa olunması önəm kəsb etməkdədir. Bu üç amillər, xalq mahnılarımızın qorunması, musiqi mədəniyyətimizdə saxlanılması milli kültürümüzə sahib çıxmağın hər birimiz üçün əsl vətənpərvərlik borcudur.

Xalq mahnılarımız sözün həqiqi mənasında xalq ruhunun mənəvi qidalarıdır. Xalqımız məhz bu ilahı bəsinlərlə bəslənərək mənən ərsəyə gəlmşlər. Hər bir xalqın özünəxas icad etdiyi musiqi aləti olduğu kimi, özünəməxsus yaratdığı-bəsdələdiyi ruhuna yatqın mahnıları mövcuddur. Bu baxımdan da Rusların xalq mahnıları onların könlüncədir. Gürcülərin xalq mahnıları da onlara doğmadır. Türklərin xalq əzgiləri Anadolu insanı üçün əzizdir. Azərbaycan xalq mahnıları da Azərbaycan milləti üçün ruh oxşayan, könül ovundurandır.

Azərbaycan xalq mahnıları körpələrimizin gözünü açmadan dinlədiyi laylalar kimi qiymətli musiqilər olub həzin, kövrək, qəlbəyatımlıdır. Daha doğrusu tarixin süzgəcindən əsrlərlə durula-durula süzülüb gələn pak, munis xislətli klassik xalq mahnılarımız sözün əsl mənasında mənəviyatımızın, ruhumuzun ana laylasıdır. Körpələri üçün həzin səslə oxuduğu şirin laylaların bəstəkarı ayaqları altında cənnət olan analar olduğu kimi, xalq mahnılarımızın bəstəkarı da ozanlar - aşıqlar, xanəndələr, sazəndələr, el sənətkarları *(məşhur zurna balaban çalan ifaçıları, Əli Kərimov, Şəkili Ələfsər, Aşıq Ədalət və s.)* olmuşlar. Bu yerli musiqiçilər xalq mahnılarımızın, rəqslərimizin yaradıcıları kimi musiqi tariximizdə şərəfli-şanlı bir mövqedə yer almaqdadırlar. Hələ Sovetlər dönəmində, keçən əsrin 70-ci illərindən günümüzədək Azərbaycan radiosunda və televiziyasında xalq mahnısı olaraq vaxtaşırı səsləndirilən və xalqımızın, elimizin, obamızın sevdiyi və dillər əzbərinə çevrildiyi «Qarabağ», «Sən də həmdəm, mən də həmdəm», «Var gülüşündə», «Şahnaz» təsnifi kimi məşhurlaşan «Deyin hardadır», «Səni qəmli görəndə», «Bəxtəvər gəlin», «Ay gecikən

məhəbbətim», «Qurban olum», «Sən güləndə», «Ay qız», «Xatirəsən», «Gəl inad etmə»[11] və s. anonim musiqi örnəkləri müstəqillik əldə etdikdən sonra hər kəsə bəlli oldu ki, bu mücövhərlərin bəstəkarının ismi Bəhram Nəsibov (Bax: Şəkil № 1) adında şair təbiətli istedadlı tar-gitara ifaçısı musiqiçi imiş.

Şəkil № 1. Bəhram Nəsibov (1941- 1998)

Bəstələdiyi orijinal əsərləri ilə Sovetlər dönəmində anonim müəllif statusunda yer alan musiqiçilərimizdən biri də Şahid Əbdülkərimov[12] (Bax: Şəkil № 2) olmuşdur. Musiqi töhvələrini tar çalıp oxuyaraq xalqımıza çatdırmağa çalışan bu qabiliyyətli musiqiçinin gözəl təranələri millətimiz tərəfindən sevilib xoş qarşılansa da nə yazıq ki, xalq mahnısı olaraq qəbul edilmiş, müəllifin haqqı tapdanmışdır. "Azərbaycan", "Hanı bəs vəfan sənin" , "Təki sən səslə məni", "Naxçıvanım", "Ana torpağım mənim", "Bakı", "Bala gəlin", "Barmağına üzük tax", "Təzə il", "May", "Xoş gəldin", "Xurma bağı", "Qocalmışam demə anam", "Ana məhəbbəti", "Sevgilimə könül açdım", "Biləydin kaş", "Gözəlim", "Səndən cavab gözləyirəm", "Sağıcı mənim bacım", "Sarı sim", "Sevincim", "Nişan üzüyü", "Niyə belə oldu", "Yandırar səni", "Yurdumun qoynunda", "Heç küsməyin yeridirmi?", "Heydər baba", "Hacı Arif", "Peşiman", "Şirin yuxun olaydım", "Günüm keçməsin sənsiz", "Dayağım ol", "Niyə belə oldu", "Gecələr", "Abşeron - Razqrad", "Sən nəğmələr qoş" və s. mahnılar Şahid Əbdülkərimovun xalqımıza musiqi ərməğanıdır.

Şəkil № 2. Şahid Əbdülkərimov (1938 – 2003)

[11] Bax:http://www.adalet.az/w170888/22_%C4%B0YUN_-_B%C6%8FHRAM_N%C6%8FS%C4%B0BOVUN_DO% C4%9EUM_G%C3%9CN%C3%9C/#.XRKGSeszbIU

[12] Bax: http://medeniyyet.az/page/news/14721/Teki-sen-sesle-meni.html?lang=az

Xalqımız arasında könüloxşayan mahnıları ilə sevilən bəstəkar qəlbli xanəndələrimizdən biri də Qulu Rüstəm oğlu Əsgərov (Bax: Şəkil № 3) olmuşdur. Uzun illər Azərbaycan Dövlət

Şəkil № 3. Qulu Rüstəm oğlu Əsgərov (18. 12 – 1928 – 11.06 – 1987)

Opera və Balet tetrında təsirli səsi ilə fəaliyyət göstərmiş Qulu Əsgərov dahi bəstəkarımız Üzeyir Hacıbəylinin – "Leyli və Məcnun" operasında Məcnun obrazının əvəzsiz ifaçısı kimi könül dünyamızda taxt - tac qurmuşdur. Məşhur musiqiçinin bəstələdiyi neçə - neçə mahnıların ilk ifaçısı da məhz Qulu Əsgərov özü idi. İlk ifadan sonra digər xanəndələr də bu əsərlərə müraciət edərək xalqımızın şənliklərində, toy - düyünlərində, müxtəlif konsertlərdə böyük həvəslə oxumuşlar. Milli ruhda yazılan bu musiqi incilər hətta Azərbaycan Dövlət Televiziya və Radiosundan nə yazıq ki, uzun illər xalq mahnısı kimi səsləndirilmişdir. Qulu Əsgərovun bir neçə mahnısının adlarını da anmaqla bu gözəl tembrə malik səs sahibibnin - tar ifaçısının ruhunu şad etmiş olarıq. “Alagöz sevgilim”, “Aldandın şöhrətə”, “Bəstəkar qız”, “Bəyənmir məni”, “Dolanaram başına”, “Dur gəl nazlana-nazlana”, “Etibar olar”, “Əziz dost”, “Gəl, gəl”, “Gəldi –keçdi”, “Həyat var olsun”, “Xatirəli anam mənim”, “Könül bağladım”, “Nə hə deyir, nə yox deyir”, “Olarmı?”, “Vətən qızı”, “Vətən sevgisi”, “Yada sal məni”, “Yar inanmadı” və s.

Musiqiləri xalq mahnıları kimi səsləndirilən anonim bəstəkarlardan biri də Ələkbər Tağıyev (Bax: Şəkil № 4) olmuşdur. Sovetlər dönəmində SSRİ və Azərbaycanın Xalq Artisti Zeynəb Xanlarovanın və bir çox məşhur müğənnimizin həvəslə, çoşğu ilə oxuduğu “Azərbaycan”, “Anam Azərbaycan”, “Azərbaycana gəlsin”, “Azərbaycan qızıyam”, “Azərbaycan oğluyam”, “Ana Vətən”, “Bakı”, “Bakı gecələri”, “Bənövşə”, “Bilmirəm”, “Bizim dağlar”, “Bulaqdadır”, “Bülbül”, “Can həkim”, “Arzular”, “Arzum budur”, “Arzu qızım”, “Mən baharın qızıyam”, “Qal sənə qurban”, “Qadan mən alım”, “Qafqaz”, “Qəşəngdir”, “Qonşu qız”, “Lirik mahnı”, “Maral”, “Mənəm”, “Məni anıram”, “Mənim dünyam”, “Mənim əzizlərim”, “Mənim Gəncəm”, “Mənim Leylam”, “Moskva”, “Nazlı yarım”, “Neylərəm unutsan?”, “Nərgizim”, “Olmalıydın olmadın”, “Olmaz olmaz”, “Rus qardaş, rus bacı”, “Sadiqsən”, “Sevincim”, “Səbinə”, “Sədaqətim var”, “Səməni”, “Sən

gəlməz oldun”, “Sən də gül”, “Səni gözlər”, “Sənin gülüşlərin”, “Sənin sözün”, “Sənin üçün”, “Sənsən həyatım”, “Sən, sən, sən”, “Sına yar”, “Söylə yadındamı?”, “Şirin arzular”, “Tələbəlik illəri”, “Təzə gəlin”, “Tərlanım”, “Təzə il”, “Ceyran”, “Çinarlar”, “Dağlar qızı”, “Dilbər”, “Dilim-dilim ol, dilim”, “Dinə bilmədim”, “Doğrudanmı qocalıram”, “Düz bir ildir”, “Elə baxma”, “El yolunda”, “Eşqimi sönməyə qoymaram”, “Əziz neftçimiz”,”Gedirsən get”, “Göygöl”, “Göy Xəzərim”, “Gül bir az”, “Həsrətindəyəm”, “İstəyirəm görəm səni”, “Kəndimizin gözəlləri, “Endim bulaq başına”, “Külək”, “Ananın səsi”, “Aşıq dostum”, “Ay ellər”, “Vəsilə”, “Ya bir olar, ya iki”, “Yadıma düşdü”, “Yağış yağır sevgilim”, “Yaz gəldi”, “Zəminə” adlı, xalqımızın sevdiyi çoxsayda ruhayatımlı, könül fərəhlədici mahnıların müəllifi Ələkbər Tağıyev olsa da o dönəmin şərtlərinə görə təəssüf ki, anonim müəllif statusunda yer almışdır.



Şəkil № 3. Əlkəkbər Tağıyev (1924 – 1981)

Xosrov Fərəcovun, Mir Kazım Aslanlı (Sarəng), Zöhrab Abdullayev, Qafar Namazəliyev, Novruzlu İsgəndər, Hacıbaba Həsənov [13] kimi xalq musiqiçiləri ilə bahəm, bir çox xanəndələrin *(Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Qulu Əsgərov, Əlibaba Məmmədov, Arif Məmmədov, Hacıbaba Hüseynov, Arif Babayev, Məmmədbağır Bağırzadə, Fedot Hüseynov)* yaratdıqları xalq mahnıları, ilə muğam ifaçılığı xəzinəsinə yeni musiqi əlavələri ilə kamillik gətirmişlər.

Sazəndələr *(Əhməd Bakıxanov, Bəhram Mansurov)* əsasən instrumental musiqilər dəramədlər, rənglər, diringilər yaratmış, bu bənzərsiz töhvələri ilə də muğam dəstgahlarını zənginləşdirmişlər.

Ustad aşıqlarımız klassik saz havaları bəstələyərək ipə-sapa ilmə-ilmə düzmüş, ənənəvi olaraq sayını 72-yə çatdırmaqla *(Araşdırmamıza əsasən sayı yüzlərlə olub bizim tərəfdən 418 saz havası nota yazılaraq 2013 ilində nəşr olunaraq xalqımıza çatdırılıb. İ.İ.)* məclislərdə çalıb oxumuşlar.

[13] Bax: https://525.az/site/?name=xeberprint&kecid=1&news_id=31355

Çobanlarımız sürüsünü yaylaqda otararkən, təbiətin əlvan, əsrarəngiz mənzərələri qarşısında heyrətə gələrək tütəkdə "Çoban-Bayatı"nı yaradaraq qəmli ahənglərlə çalıb söyləmişdir. El sənətkarlarımız, balabançılarımız, zurnaçılarımız minbir ahəngli rəqs havalarımızı, tulum ifaçıları isə birliyimizin, bərabərliyimizin simgəsi olan Naxçıvan yallılarımızı bir sözlə tarixi musiqilərimizi icad edərək xalqın toy düyünlərində, el şənliklərində yerli insanları rəqs musiqilərinin ecazkar ahəngləri müşayiətində oynada bilmişlər.

Analarımız isə müqəddəs südü ilə öz körpəsini bəsləyərək, səmimi və xoş poetik incilər üstündə bəsdələdiyi laylalarlar adlı kövrək melodiyalarla oxuyaraq göz bəbəyini rahatca uyuda bilmişlər. Milli mənəvi qidamızın el bəstəkarları məhz bu musiqiçilərin adı ilə bağlıdır. Hər dövrdə onlar öz yaradıcılıq töhfələri ilə milli musiqi irsimizi daima zənginləşdirməklə millətimiz üçün müqəddəs xidmətlərini təmənnasız olaraq cani - dildən göstərmişlər.

Xalq mahnılarımız belə demək mümkünsə xalqımızın qan - gen, ruh yaddaşımızdır. Tarixin hər cür olayları bu musiqilərdə yaşadılmaqdadır. Qəhrəmanlıq ruhlu Koroğlu havaları Koroğlunu, "Cəngi Koroğlu" isə ər meydanında vuruşan bahadır övladlarımızın qılınc-qalxan döyüş sədalarını sazın tellərində əks etdirdiyi kimi, "Dərbəndi" adlı aşıq havası da xalq qəhrəmanı Qaçaq Nəbini, onun igidliyini, yenilməzliyini, şücaətini, mərdliyini, yağılara qarşı apardığı amansız mübarizəsini, ölüm - dirim mücadiləsini öz ahəngində, əzəmətli melodik sədalarında səmimiyyəti ilə yaşatmaqdadır.

Milli ruhun mənəvi qidaları olan mahnılarsız, nəğmələrsiz hər hansı bir xalqı təsəvvür etmək mümkün deyildir. Xalq mahnılarından məhrum qalmış millət demək ruhunda müqəvvalıq, manqurdluk xislətini yaşatmakdadır.

Xalq mahnılarımız xalq mənəviyyatının musiqi ab-havasında melodik dillə tərcüməsidir. Bu baxımdan da hər bir xalq öz mahnılarına aşinadır. Çünki körpəlikdən qulaqları bu musiqi sədalarını dinləmiş, ruhu bu kök üstə köklənmişdir. Qəmli ovqatlı mahnılar qəm kökündə, sevinc, şux əhval - ruhiyyəli havalar isə şənlık abhavası üstündə zil sədalarlar tonunda nizamlanmışdır. Xalq mahnıları xalqı yaşatdığı kimi, xalq da öz növbəsində xalq mahnılarını sevə-sevə, əsrlərlə bəzən zümzümə ilə bəzən də üca səslə oxuyaraq yaşatmışdır. Buna görə də xalq mahnılarımızı tariximizin musiqidəki əks sədası, melodik heykəlləri, təsdiqlənmiş milli abidələri adlandırmaq daha doğru olar. Məcazi anlamda bu mahnıların memarları, rəssamları,

bəstəkarları, şairləri, bu dəyərləri yaşadan xalq sənətkarlarıdır ki, el şənliklərində çalıb - oxuyub təbliğ etmiş, xalqın hörmə - ehtiramını qazanmışlar.

Xalq mahnılarımız hər kəsin özünün – özü ilə etdiyi həmsöhbəti, tərəfmüqabilidir. Təsadüfi deyildir ki, avtobus sürücüləri, fərqli plakalı avtomobil sahibləri müəyyən bir iş üçün səfərlərə çıxmaq məcburiyyətində qaldığı zaman hər zaman qəlbinə, ruhuna yatqın hər hansı bir xalq musiqi nümunələrini radiodan dinləməklə uzaq məafəni bir qədər yaxın etməyə çalışmaqdadırlar. Bu hal xalq mahnılarımıza olan sevginin, məhəbbətin ən gözəl əlaməti deyilmi? Belə demək mümkünsə, xalq mahnıları qərinələrlə insanların yol - yoldaşı, könül həmdəmi, ürəyinin gizli sirdaşı, qəlbinin mənəvi arkadaşı missiyasını yerinə yetirməkdədir. Hər bir vətən övladı məhz bu musiqilərin xoş təranələri altında təskinlik tapmış, böyüyüb başa çatmış, ərsəyə dolup mənəvi cəhətcə zənginləşərək kamilləşmişlər.

Qəhrəman xalqımıza və istedadlı musiqiçilərimizə ərmağan etdiyimiz **"Ürəyimin nəğmələri"** adlı kitabım, 11 il ərzində Uca Allahım tərəfindən göndərilən musiqi ilhamı sayəsində 400-dən artıq, milli ruhda olan vokal melodik incilərimiz ilk dəfə notaya köçürüb yayınlatmaq məramından yaranmışdır. 113 adda xalq mahnıları ruhunda olan əsərlərim, ayrı-ayrı şairlərin müdrikanə fikirlərlə yüklü mənalı, sözlərinin təsirindən yaranmaqla nota yazılmış şəkildə kitabımızda ilk dəfə olaraq yer almaqdadır. Bu məcmuədə, el şairi Cəmil İmamverdi oğlu Əkbərin 35 dən artıq poetik mətninə yazdığım musiqilər, həmçinin də sözləri mənə aid olan, hətta bir çox şairlərin *(Ə.Cavad, O.Sarıvəlli, Dədə Katib, C. Qurbanov, M.İlqar, Z. İmamverdi, İ. Cəmiloğlu, M. Göyçəli, T. M. Dədəkurt, R.Xasayoğlu, O.Hulusi, H. Təməl, M.Uslu və s.)* şeirlərinə bəsələdiyim, xalq musiqi intonasiyalarına yatqın melodik nümunələr daxil edilmişdir. Gələcək zamanlarda anonimlik olmasın deyə yazdığım, **"Ürəyimin nəğmələri"** adlı bəstələrimdən ibarət məcmuəm Azərbaycan müğənniləri, xanəndələri həmçinin Türkiyə səs sənətciləri və xalq çalğı alətləri ansambl rəhbərləri, habelə yerli və yabançı musiqiçilərın faydalanabilməsi üçün nəzərdə tutulmuşdur.

İlgar Cəmiloğlu İmamverdiyev
Sənətşünaslıq elmləri doktoru,
Üzeyir Hacıbəli adına Bakı Musiqi Akademiyasının,
Gaziantep Universiteti Türk Musiqisi Dövlət
Konservatoriyasının Professoru 21. 03 – 2021 Novruz bayramı

AZƏRBAYCAN-TÜRKİYƏ № 4

Mus. İlqar Cəmiloğlu.
7.12 – 2012 saat 09:01




32
Vok.
- - - - - - - çə gül bi - - - - - tən A - - zər - - bay – can Tür – ki - - - - yə
İnst.
38
Vok.
Tür - - ki - - - yə İl - - - qar Cə - - - - mil e - - - - - - - - dər
İnst.
43
Vok.
bə - - - - - yan Qüd - - - rə - - - tin - - - - dir Ba - - - - kı Ce - - y - - han
İnst.
48
Vok.
İnst.
56
Vok.
İl - - qar Cə - - mil e - - - - - dər bə - - - yan Qüd - - rə - - - tin - - dir Ba - - -kı
İnst.
63
Vok.
Ce - - y – han Tan – rım ya – r – dım et - - sin hə - - r an
İnst.
70
Vok.
A - - zər – bay - can Tür - - ki - - yə Tan - rım
İnst.



I BƏND

{Həm anamsan, həm vətən,
Azərbaycan, Türkiyə.**}2**
{Könlümdə qönçə gül bitən,
Azərbaycan, Türkiyə**.}2**

NƏQƏRAT

{İlqar Cəmil edər bəyan,
***Qüdrətindir Bakı-Ceyhan*.} 2**
{Tanrım yardım etsin hər an,
***Azərbaycan, Türkiyə.*} 2**
***{Azərbaycan, Türkiyə.*} 2**

II BƏND

{Bir baxışda iki göz,
Biri atəş, biri köz,**}2**
{Ürəyimdə iki söz ,
Azərbaycan, Türkiyə.**}2**

III BƏND

{Biri ulduz, biri ay,
Biri sultan, biri bəy,**}2**
Ülvi isim, ulu soydur,
{Azərbaycan, Türkiyə.**}2**

NƏQƏRAT

IV BƏND

{İnsanlıqda nur, işıq,
Məramıdır barışıq,**}2**
{Bu cahana bir yaraşıq,
Azərbaycan, Türkiyə.**}2**

IV BƏND

{Bir millət, iki dövlət,
Qardaşlıqda sədaqət, **}2**
{Həm cürət, həm də qeyrət,
Azərbaycan, Türkiyə.**}2**

NƏQƏRAT

V BƏND

{Biri üzük, biri qaş,
Biri gövdə, biri baş, **}2**
{Dini bir ekiz qardaş,
Azərbaycan, Türkiyə. **}2**

VI BƏND

{Biri şərəf, biri şan,
Biri damar, biri qan, **}2**
{Varlığımda iki can,
Azərbaycan, Türkiyə.**}2**

NƏQƏRAT

GÖZÜN AYDIN AZƏRBAYCAN

Mus. və Söz: İlqar Cəmiloğlu İmamverdi.
6. 04 – 2016 saat 11:33




18
Vokal.
Düş - mə - nə ..... sərt ca - va – bın çox la - - yiq - - li ..... ö - - - r - nək
Inst.
20
Vokal.
Göz - - lə - - - rin ay - - dın ol - - - - sun A - - - - - - - zər - - bay - can
Inst.
22
Vokal.
Ba - - bə - - ki - - min qey - rə - - - ti Ko - - roğ - lu - - mun qüd - rə - - ti
Ça - van - - şi - - rin şöh - - rə - - ti Ca - - vad xa - - nın qey - rə - - - ti
Inst.
24
Vokal.
Qoç Nə - - bi - - min cü - - rə - - - ti Gö - zün ay - - dın A - - zər - - bay - - - -
Sət - - tar xa - - nın qüd - - rə - - ti Gö - - zün ay - - dın A - - zər - - bay - - - -
Inst.
26
1.
Vokal.
- - - - - ca - - - - - - - - - - - - - - - - n Şan - lı Və - tən A - - zər - bay - - - -
Inst.



Bu ilk qələbən çox mübarək, mübarək,
Gözlərin aydın olsun Azərbaycan.
Düşmənə sərt cavabın çox layqili, örnək,
Gözlərin aydın olsun Azərbaycan.

N Ə Q Ə R A T

Babəkimin qeyrəti,
Koroğlumun qüdrəti,
Qoç Nəbimin cürəti,
Gözün aydın Azərbaycan.
Şanlı Vətən Azərbaycan.

Cavanşirin şöhrəti,
Cavad xanın qeyrəti,
Səttar xanın qüdrəti,
Gözün aydın Azərbaycan.
Canım, qanım Azərbaycan,
Şərəf-şanım Azərbaycan, Hey!

İlqar bu günü gözlədi, gözlədi,
Səbr edib özlədi, səni özlədi.
Varlığı, qəlbi, canı, ruhu sizlədi,
Gözlərin aydın olsun Azərbaycan.

ATATÜRKÜM

Söz və Mus: İlqar Cəmiloğlu.
11.15 – 2015 saat 07:56 Qaziantep Universiteti.




16
Vok.
gö - - zü sə - - n - sən O – ca - ğı - - nı – n kö - - zü sə - n - - sən
gü - - cü sə - - n - sən Düş–mən-lə- r– də -n ö - - - cü a - - l - dın
Inst.
19
Vok.
Min mə - na - - - - - lı ..... sö - - - zü sə - n – sən A – ta – tü – r – kü – m
Zə - fər – lə - - r - - də - n ta - - - cı a - - l - - dın A – ta – tü – r – kü – m
Inst.
22
1.
2.
Vok.
A – ta – tü – r – küm A – ta - tü – r – küm Bu mil – lə - - - ti - - - - - - - -
Hər bir xa - l - qa .....
Inst.
25
Vok.
- - - - - - - - - - - - - n qo – ru – cu - - - su ..... Hər a - - la - - - - nı - - - - - - - n bi - - li – ci - - - si .....
..... hür is – tə - - - - di - - - - - n Sə - da – qə - - - - ti ..... gur is – tə - - - di - - - - - - -
Inst.
28
Vok.
..... Məm – lə - - - kə - - - - - - - - - - - - - - - - - - n qu - - - ru - - - cu - - - - - - su- - - - - - - - - - -
- - - - - - - - - - - n Qar - - daş - - lı - - - - q - - - da - - - - - - - - n dür is - - - tə - - - - - - - di .....
Inst.



ATATÜRKÜM

Dahilərin dahisisən,
Atatürküm, Atatürküm
Bu cahanın hamisisən,
Atatürküm, Atatürküm.

Hər bir xalqa hür istədin,
Səadəti gur istədin,
Qardaşlıqdan dür istədin,
Atatürküm, Atatürküm.

Xalqın görən gözü sənsən,
Ocağının közü sənsən,
Bin manalı sözü sənsən.
Atatürküm, Atatürküm.

Ürəklərdə adın qalır,
Könüllərdə odun qalır,
Ağzımızda dadın qalır,
Atatürküm, Atatürküm.

El – obadan gücü aldın,
Düşmənlərdən öcü aldın,
Zəfərlərdən tacı aldın,
Atatürküm, Atatürküm.

Gözümüz səni arıyar,
Sözümüz səni arıyar,
İzimiz səni arıyar,
Atatürküm, Atatürküm.

Bu millətin qorucusu,
Hər alanın bilicisi,
Məmləkətin qurucusu,
Atatürküm, Atatürküm.

İnsanlığın bir danəsi,
Aydınlığın nur danəsi,
Müqəddəslik, zər danəsi,
Atatürküm, Atatürküm.

Nə iş gördün doğru gördün,
Türklüyümə çələng hördün,
Haq yolunda ömür sürdün,
Atatürküm, Atatürküm.

Bu bəşərin iftixarı,
Böyüklüyün şah vugarı.
Ülvi eşqin düz ilqarı,
Atatürküm, Atatürküm.

Çanaqqalq zəfərindir,
Xoşbəxtliyə səfərindir,
Her başarın afərindir,
Atatürküm, Atatürküm.

İlqarın, amalı oldun,
Ruhunda qalmalı oldun,
Çok yaşa dolmalı oldun,
Atatürküm, Atatürküm.

10. 11 – 2015 saat 08:34

MƏNİ CANDAN USANDIRDI

Söz: Məhəmməd Fizuli.
Mus: İlqar Cəmiloğlu.
17.05 – 2016 saat 16:19 Qaziantep Universiteti.





Məni candan usandırdı,
Cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən,
Muradım şəmi yanmazmı?

Qəmu bimarinə canan,
Dəvayi-dərd edər ehsan.
Neçin qılmaz mənə dərman,
{Məni bimari sanmazmı?**}2**

* * *

Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım.
Oyadar xəlqi əfğanım,
Qara bəxtim oyanmazmı?

Güli-rüsxarinə qarşı,
Gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu,
{Axar sular bulanmazmı?**}2**

Degildim mən sənə mail,
Sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil,
Səni görcək utanmazmı?

Füzuli rindü şeydadır,
Həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır,
{Bu sevdadan usanmazmı?**}2**

AZƏRBAYCAN ƏSGƏRİ № 1

Mus və söz: İlqar Cəmiloğlu İmamverdiyev.
3-4. 04 – 2016 saat 16:10 / Gaziantep.




20
Vokal.
- - - - - - can ə - - s - - gə - - ri Sən – gər - də o - - yaq ə - - s - gə - - - -
Inst.
24
Vokal.
- - - - - - ri A - zər - ba - y - - can ə - - s - - gə - - ri Türk oğ - lu
Inst.
28
Vokal.
Tür - kün ə - s - gə - - ri Şə - rə - fi - n - - lə ö - yü - nü - - - - -
Inst.
32
Vokal.
- - - - - - - - rəm Hər uğ - ru - - na se - - vi - ni - - - - rəm bir ü - rə - - - - yəm dö - yü - nü - - - - - - -
Inst.
36
Vokal.
- - - - - - - - - - rə - - m A - zər - ba - y - - - can ə - - s - - gə - - ri Türk oğ - lu .....
Inst.



Qarabağın xilaskarı,
Azərbaycan əsgəri.
Səngərdə oyaq əsgəri.

Qəvi düşmən alçaq, alçaq,
Al tüfəngi, başında çax.
Şuşamdan qov, düşsün qaçaq.

N Ə Q Ə R A T
Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.

Şərəfinlə öyünürəm,
Hər uğruna sevinirəm.
Bir ürəyəm, döyünürəm,

Sərrast vuran ələ qurban,
Doğru deyən dilə qurban.
Qələbəli ilə qurban.

N Ə Q Ə R A T
{Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.}2

* * *

Vətən uğrunda şəhidsən,
Şəhidliyinlə şahidsən.
Dünyada təksən, vahidsən,

Toprağımda gül bitir sən,
Türk dünyasına yetir sən.
Bu savaşı sən bitir, sən!

N Ə Q Ə R A T
Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.

Sən millətimin özüsən,
Nifrətlə baxan gözüsən.
Xalqımızın haqq sözüsən,

Ümid bir Allaha qalıb,
Qələbənə çox az qalıb.
İlqar zəfər marşı çalıb.

N Ə Q Ə R A T
{Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.}2

* * *

Koroğlu tək qoşunu çək,
Quzğun ol, sinəsinə çök.
Gavuru torpağımdan ək,

N Ə Q Ə R A T
Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.

Qadan-bəlan mənə gəlsin,
Arzularım sənlə gülsün.
Düşmən tikan, sən bir gülsən,

N Ə Q Ə R A T
{Azərbaycan əsgəri.
Türk oğlu, Türkün əsgəri.}

AZƏRBAYCAN ƏSGƏRİ № 2

Mus: Elnura Həsənova
Söz İlqar Cəmiloğlu
29. 10-2020 saat 20:38 / Gaziantep.




17
Vokal
ə - - s - - gə - - - - ri
Və - - tən uğ - - run - - da şə - - - - - - hid - - sən
Ko - - roğ – lu - - tək qo - - şu - - - - - - - nu çək
Inst.
20
Vokal
Şə - - - hid - - - li - - - yin - - - lə şa - - - - - - - hid - - sən Dün - - ya - - - da tək - - - -
Ya - - - ğı - - - nın si - - - nə - - si - - - - - - - - nə çök Ga - - - vu - - - run ba - - - -
Inst.
23
Vokal
- - - - - - - - - - - - - sən va - - - - hid – sən A - - - - - zər - ba - - y - - ca - - n ə - - s - - gə - - - - - - - ri
- - - - - - - - - - - - - şı - - na ..... od tök A - - - - - zər - ba - - y - - ca - - n ə - - s - - gə - - - - - - - ri
Inst.
26
Vokal
Tü - rk oğ - lu ..... Tü - rk ə - s - - gə - - - - - ri A - - zər - - bay - can
Tü - rk oğ - lu ..... Tü - rk ə - - s - - gə - - - - - ri
Inst.
29
Vokal
1.
əs - gə - - - - - ri Tü - rk oğ - lu ..... Tü - rk ə - - s - - gə - - - - - - ri
Inst.



Qarabağın xilaskarı,
Azərbaycan əsgəri.
Səngərdə oyaq əsgəri,
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

Sən millətimin özüsən,
Sərhəddə baxan gözüsən.
Xalqımızın haqq sözüsən,
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

Vətən uğrunda şəhidsən,
Şəhidliyinlə şahidsən.
Dünyada təksən, vahidsən,
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

Torpağımda gül bitir sən,
Türk dünyasına yetir sən.
Bu savaşı sən bitir, sən!
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

Koroğlu tək qoşunu çək,
Yağının sinəsinə çök.
Gavuru başına od tök,
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

Doğru deyən dilə qurban.
Sərrast vuran ələ qurban,
Qələbəli ilə qurban,
Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.

N Ə Q Ə R A T

{Azərbaycan əsgəri.
Türk oğlu, Türk əsgəri.}2

OLACAMMI?

Söz: Cəmil Əkbər.
Mus: İlqar Cəmil.
11. 06 – 2016 saat 11:37




13
2.
Vokal.
dü - - ş - mü - - - - şəm
Gö - - - rə - - sə - - n va - xt gə - - li - - b
Gö - - - rə - - sə - - n bi - - r za - ma - - n
Inst.
16
1.
2.
Vokal.
şa - - d o - - la - - ca - m - mı?
şa - - d o - - la - - ca - m - - mı?
Inst.
19
Vokal.
Ə - - - - - - yə - - rə ..... ə - - - k - - si - - yə ..... kə - - - - - mə düş - mü - - - - - - -
Inst.
22
1.
2.
Vokal.
- - - - - - - - - - - - - şəm - - şəm Ö - - - - - zü - - mə .....
Inst.
25
1.
Vokal.
la - - - - - - yiq - - li ..... a - - - d a - - - la - - ca - m - - mı?
Inst.


28
2.
Vokal.
- - - - - - - - - mı?
İ - - - - zim qa - - - - la - - - caq - - - mı fa - - - ni .....
Inst.
31
Vokal.
dü - n - - ya - - - - - da
Gö - - - - zü - - mə .....
gö - - - - rü - - nə - - - - - n
Inst.
34
1.
2.
Vokal.
a - - ni dü - n - - - ya - - - - - da
- - da
Inst.
37
Vokal.
Lə - - - - - - ya - - qə - - - t
ə - - h - - - li - - nə .....
ca - - ni .....
dün - ya - - - - - -
Inst.
40
1.
2.
Vokal.
- - - - - - - - - da
- - da
Də - - - - - han - da .....
Inst.



OLACAMMI?

Dünyaya gələndən qəmə düşmüşəm,
Anadan olandan qəmə düşmüşəm,
Görəsən vaxt gəlib şad olacammı?
Görəsən bir zaman şad olacammı?
{Əyərə, əksiyə, kəmə düşmüşəm,}2
{Özümə layiqli ad alacammı?}2

NƏQƏRAT 1

{İzim qalacaqmı fani dünyada?
Gözümə görünən ani dünyada?}2
{Ləyaqət əhlinə cani dünyada?}2
{Dəhanda, dodaqda dad olacammı?}2

{Kara çatacaqmı sözüm, söhbətim? }2
{Doğruluq, düzgünlük, ol həqiqətim?}2
{Ellərə, obaya saf məhəbbətim? }2
{Əsrlər keçdikcə yad olacammı?}2

NƏQƏRAT 2

{Bəd sözlə, əməllə çalışanları,
Əllərə, ayağa dolaşanları, }2
{Yersiz qızışanı, alışanları, }2
{Söndürə biləcək bad, olacammı? }2

Zəmanə mülkündə sönüb getsəmdə,
Zirvədən aşağı enib getsəmdə,
Kiriyib getsəmdə, dinib getsəmdə,
Görəsən bir zaman od olacammı?

NƏQƏRAT 3

{Cəmil çıxacaqmı qəhər içindən?
Qəm-qüssə içindən, kədər içindən? }2
{Üfunət gölündən, zəhər içindən? }2
{Yaraya sürtməyə yod olacammı? }2

7. VIII – 1998
CƏMİL ƏKBƏR

NƏ MƏNASI VAR?

Söz: Cəmil Əkbər.
Mus: İlqar İmamverdi.
10.02 -2016 saat 13:26




13
Vokal.
Kön - lüm se - vir siz - zin ki - - mi ..... xa - - - nı - - - mı
Inst.
15
Vokal.
Söy – lə ba – xı - - - - şı - - n nə mə - - na - - - sı var
Inst.
17
Vokal.
A - - lış - dı - rı - - b yax - maq a - - san - - dır i - - nan
Inst.
19
Vokal.
Dər – di – mi bi - - - - lə - nim yo - xum – dur qa - - nan
Inst.
21
Vokal.
Eş - qin – lə mən ya – nı - ram ey gö – zəl ca - - nan
Inst.
23
Vokal.
Yan - dı - rib ya - x - ma - ğın nə mə - - na - - - sı var?
Inst.



O qara gözlərin alır canımı,
Elə bil zəli tək sorur qanımı.
Könlüm sevir sizin kimi xanımı,
Söylə, baxışının nə mənası var?

Alışdırıb yaxmaq asandır inan,
Dərdimi bilənim, yoxumdur qanan.
Eşqinlə mən yanıram, ey gözəl canan,
Yandırıb yaxmağın, nə mənası var?

N Ə Q Ə R A T

Alışıb yanıram, ey gözəl canan,
Yandırıb yaxmağın, nə mənası var?
Özüm bir atəşəm, ey nazlı canan,
Bir daha yaxmağın nə mənası var?, nə mənası var?

Qoynunda bəsləyib şamama, narlar,
Ürəyi çürüdür vəfasız yarlar.
Könlümü üzübdür çox intizarlar,
Həsrət baxışımın təmənnası var.

Bilirəm sənin də arzu-istəyin,
Vardır ürəyində ülvi diləyin,
Məni özün üçün məftun eylədin,
Cəmilin səndən də bir umması var.

SAZ GÖNDƏRƏRDİM

Söz: Zakir İmamverdi..
Mus:İlqar Cəmil.
7.02-2016 saat 05:21




16
Vokal.
Ke – fi - - - ni aç - ma - - ğa ... saz gö-n - də - - - rə - r - dim Be -cə - - rib gül- lə - ri
Inst.
19
Vokal.
ö - z ə - l - lə - - ri -m-lə Sə-pə- r-dim yo - lu - na öz ə - l - lə - ri-m-lə
Inst.
22
Vokal.
Hö - rə-r-dim sa-çı - nı ö - z ə - l - lə - - ri - m- lə Mə -hə-b-bət ba – ğı - - na....
Inst.
25
Vokal.
yaz gö- n-də - rər-dim Ke –fi - - ni aç - ma -ğa ... saz gö–n-də - - rə - r- dim
Inst.
28
Vokal.
Sə - ni - n- lə dün - ya - - ya gəl - sə- y - di - m ye - - - nə
Inst.
31
Vokal.
Ke – fi - - ni aç - ma - ğa saz gö -n- də - - rər - di - - -m
Inst.



GÖNDƏRƏRDİM

Yandıra bilsəydim sönən ocağı,
Ürəkdən-ürəyə köz göndərərdim.
Səninlə dünyaya gəlsəydim yenə,
Kefini açmağa saz göndərərdim.

Becərib gülləri öz əllərimlə,
Səpərdim yoluna öz əllərimlə,
Hörərdim telini öz əllərimlə,
Məhəbbət bağına yaz göndərərdim.
Kefini açmağa saz göndərərdim.

N Ə Q Ə R A T
Səninlə dünyaya gəlsəydim yenə,
Kefini açmağa saz göndərərdim, saz göndərərdim.
Eşqinin bağına yaz göndərərdim.

D İ K S İ Y A
Kədəri qoymazdım gözünə gözəl,
Nə dərdi-qəm düşə gözünə gözəl,
Qoymazdım nəm düşə gözünə gözəl,
Gözümdən-gözünə söz göndərərdim.

* * *

Bir görə bilsəydim o nur üzünü,
Mən izhar edərdim ürək sözümü.
Uğrunda kəsərdim qurban, özümü,
Qanım axa-axa iz göndərərdim.

Zakir adda, Məcnun oldum dünyada,
Səcdə qıldım ülvu eşqdə bu ada,
Sən Şirin ol, mən də dönüm Fərhada,
Nazını çəkməyə döz göndərərdim.
Kefini açmağa saz göndərərdim.

QADINLARIN BAYRAMI № 1

Mus. və söz: İlqar Cəmiloğlu.
6.03 – 2016 saat 11:16




25
Vokal.
Sək - - ki - - - zi mart qa - - dın - - la - - - rın ba - - y - - ra - - m
Sək - - -ki - - - zi mart qa - - dın - - la - - - rın
Inst.
28
Vokal.
ba - - y - - - ra - mı Nov - - ruz - - dan on gün ön - - - cə on
La - - - yiq - - - sən qı - - - - za gən - - -cə qı - - - - -
Inst.
31
Vokal.
gün ön - - - cə Gül ki - - - mi zə - - - - rif in - - - - cə zə - - - - -
Inst.
34
Vokal.
- - - - - - - - - rif in - - - cə ba - - y - - -ra - mı İl - - - qa - - ra se - - - -
Xoş xə - - bər bu
Inst.
37
Vokal.
- - - - - - - - - - - - - - - - vinc gə - - tir se - - - vinc gə - - - - tir Müj - - də - - - -li xə - - - - -
gün gə - - -tir bu gün gə - - - - tir Sək - - - ki - - zi mart
Inst.
40
Vokal.
- - - - - - - - - - bər gə - - - tir xə - - bə - - - r gə - - -tir
Qa - dın - - - - - la - - rın ba - - y - ra - - mı
Inst.



İnsana hüzur gəlir, hüzur gəlir,
Səkkizi Mart qadınların bayramı.
Sanki bir Xızır gəlir, Xızır gəlir,
Səkkizi Mart qadınların bayramı.

"Novruz"dan on gün öncə, on gün öncə,
Gül kimi zərif, incə, zərif, incə,
Layıqsən qıza, gəncə, qıza, gəncə,
Səkkizi Mart qadınların bayramı.

N A K A R A T
İlgara sevinc gətir, sevinc gətir,
Müjdəli xəbər gətir, xəbər gətir
Xoş xəbər bugün gətir, bugün gətir,
Səkkizi Mart qadınların bayramı.
{Səkkizi Mart bayramı, qadınların bayramı.} 2

Xanımlar baş tacıdır, baş tacıdır,
Dərdlərin əlacıdır, əlacıdır.
Bilməyənə acıdır, çox acıdır,
Səkkizi Mart qadınların bayramı.

Şahanə bayram oldun, bayram oldun
Qəlbimdə daim qaldın, daim qaldın,
Mən səndən ilham aldım, ilham aldım,
Səkkizi Mart qadınların bayramı.

N A K A R A T
İlgara sevinc gətir, sevinc gətir,
Müjdəli xəbər gətir, xəbər gətir
Xoş xəbər bugün gətir, bugün gətir,
Səkkizi Mart qadınların bayramı.
{Səkkizi Mart bayramı, qadınların bayramı.} 2

Dünyanın yaraşığı, yaraşığı,
Bu cahanın işığı, nur işığı,
Sevginin barışığı, barışığı,
Səkkizi Mart qadınların bayramı.

Prof.Dr. İlgar İMAMVERDİYEV 4. 03 – 2016 saat 11:20

QADINLARIN BAYRAMI № 2

Mus. və söz: İlqar Cəmiloğlu.
9.03 – 2016 saat 09:17




17
1.
Vokal.
A - na - la - - - rı - n sək - ki - - - - zi ..... ma - rt ba - y - - ra - - - mı
Ba - cı - la - - - rı - n sək - ki - - - - zi ..... ma - rt
Inst.
20
2.
Vokal.
ba - y - ra - - - - mı Nov - ruz - dan on i - - - ki ..... gün ö - - - n - - -
Inst.
23
Vokal.
- - - - - - - - - - cə ..... ö - - n – cə Gül ki - mi zə - - - - - - - rif i - - n - - cə zə - - - - - - -
Inst.
26
Vokal.
- - - - - - - - - - - ri - f i - - n - cə La -yiq- sən qı - za gə -n - cə qı - - - - - za ..... gə - n - cə
Inst.
30
Vokal.
Qa – dın - la - - - rı - n xa - nı -m - la - - - rı – n ba - y - - ra - - - - mı .....
Inst.
33
Vokal.
A - na - la - - - - rı - n sək - ki - - - - zi ..... ma - rt ba - y - - ra - - - - - - mı
Inst.
Fine

QADINLARIN BAYRAMI

{İnsana hüzur gəlir, hüzur gəlir.} 2
Qadınların səkkizi mart bayramı.
Anaların səkkizi mart bayramı.
{Sanki bir Xızır gəlir, Xızır gəlir.} 2
Anaların səkkizi mart bayramı.
Bacıların səkkizi mart bayramı.

‘Novruz’dan on iki gün öncə, öncə,
Gül kimi zərif, incə, zərif, incə.
Layıqsən qıza, gəncə, qıza, gəncə,
Qadınların, xanımların bayramı.
Anaların səkkizi mart bayramı.

* * *

{Xanımlar baş tacıdır, baş tacıdır}2
{Dərtlərin əlacıdır, əlacıdır.} 2
{Bilməyən kimsəyə acıdır, acıdır} 2
Xanımların səkkizi mart bayramı.
Qadınların səkkizi mart bayramı.

Şahanə bayram oldun, bayram oldun,
Qəlbimdə daim kaldın, daim kaldın,
Mən səndən ilham aldım, ilham aldım.
Anaların, bacıların bayramı.
Qadınların səkkizi mart bayramı.

* * *

{Dünyanın yaraşığı, yaraşığı} 2
{Bu cahanın nur işığı, işığı.} 2
Sevgi, eşq barışığı, barışığı,
Ülvi eşq barışığı, barışığı.
Xalaların, bibilərin bayramı,
Qadınların səkkizi mart bayramı.

İlgara sevinc gətir, sevinc gətir,
Müjdəli xəbər gətir, xəbər gətir.
Xoşbəxtliyi bu gün gətir, sən gətir.
Anaların səkkizi mart bayramı.
Nənələrin səkkizi mart bayramı.

Prof.Dr. İlgar İMAMVERDİYEV
4. 03 – 2016 saat 11:20

AĞ ÇİÇƏKLƏR № 1

Mus. və Söz. İlqar Cəmil.
26.03 – 2016 saat 23:48
Atlas Qlobal uçağı / Qaziantep





Qızlar kimi zərifsiniz,
Ağ çiçəklər, ağ çiçəklər.
Başdan-başa tərifsiniz,
Qıza bənzər ağ çiçəklər.

Siz necə də gözəlsiniz,
Gözəldən də əzəlsiniz.
Haqq bəxş edib özəlsiniz,
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər ağ çiçəklər.

Hərəniz bir rəngdəsiniz,
Fərqli ahənglərdəsiniz.
Deyin, haralardasınız?
Ağ çiçəklər, ağ çiçəklər.

Arı sənin qardaşındır,
Etibarlı yoldaşındır.
Təkcə sənin sirdaşındır,
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər ağ çiçəklər.

Sevənlər heç qocalmayır,
Sevməyənlər ucalmayır.
Zəfər çalıb bac almayır,
Ağ çiçəklər, ağ çiçəklər.

Sən ülviyyətin tacısan,
Hər dərdlərin illacısan.
İlqara əziz bacısan,
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər ağ çiçəklər.

AĞ ÇİÇƏKLƏR № 2

Mus. və söz: İlqar Cəmiloğlu İmamverdiyev.
31.03 – 2016 saat 10:11




23
Vokal.
lər ağ çi – çə - k - - lər
Baş - - dan ba - - şa tə - rif – si - - - -
Inst.
27
Vokal.
ni - - - - - z
Qı – za bə - - n - - zər ağ çi - - çə - - k - - lər
Inst.
31
Vokal.
Siz ne - - cə - də ..... gö – zəl - - si - - - ni - - - - - z
Gö - - zəl - - lər - - -
Inst.
35
Vokal.
də - n gö - zə - l - si - - niz
Haqq bəxş e - - - dib ö - - zə - l - si - - - -
Inst.
39
1.
Vokal.
ni - - - - - z
Ağ çi - çək – lər a - - ğ çi – çə - k - - lər
Inst.
43
2.
Vokal.
lə - - - - - - - r
Qı - - za bə - - n - - zər ağ çi - - çə - - k - - lər
Inst.


47
Vokal.
A - - şiq - - lə - - -ri - - -n sö - zü Tə - - bi - - -ə - - -ti - - -n gö - - zu
Inst.
51
Vokal.
Gö - - zəl - - li - - - yi - - n ö - - zü Çi - -çək - - lər çi - - çək - - lər
Inst.
55
Vokal.
Ül - - vi – yə - - - ti - - n ta - - cı Hər dər – din i - - la - - - - - - cı
Inst.
59
Vokal.
Sən İl - - - - qa - - - - ra ..... ba - - - cı Çi - - çək - - - lər
Inst.
62
rit.
Vokal.
Çi - - - çə - - k - - - lər Ağ zə - - ri - - - f çi - - çə - - k - - lər
Inst.
Fine

Qızlar kimi zərifsiniz,
Ağ çiçəklər, ağ çiçəklər.
Başdan-başa tərifsiniz,
Qıza bənzər ağ çiçəklər.

{Siz necə də gözəlsiniz,
Gözəllərdən əzəlsiniz.
Haqq bəxş edib özəlsiniz,
(Ağ çiçəklər, ağ çiçəklər.)}2
Qıza bənzər ağ çiçəklər.

N Ə Q Ə R A T

Aşiqlərin sözü,
Təbiətin gözü,
Gözəlliyin özü,
Çiçəklər, çiçəklər.

Üllviyyətin tacı,
Hər dərdin illacı.
Sən İlqara bacı,
Çiçəklər, çiçəklər.
Ağ zərif çiçəklər.

* * *

Sən məsum çiçəklərimsən,
Sən bəyaz ləçəklərimsən.
Körpə balam tək kiçiksən,
Qıza bənzər ağ çiçəklər.

{Səni sevən qocalarmı?
Sevməyənlər ucalarmı?
Zəfər çalıb, bac alarmı?
(Ağ çiçəklər, ağ çiçəklər.)}2
Qıza bənzər ağ çiçəklər.

N Ə Q Ə R A T

* * *

{Eşq əhli etdilər bəyan,
Şöhrətin aləmə əyan,
De kimdiki səndən doyan?
Qıza bənzər ağ çiçəklər.

Gözəlliyin aşiqisən,
Bülbüllərin məşuqusan.
Sən gözünün işığısan,
(Ağ çiçəklər, ağ çiçəklər.)}2
Qıza bənzər ağ çiçəklər.

N Ə Q Ə R A T

AĞ ÇİÇƏKLƏR № 3

Mus. və söz: İlqar Cəmil.
2.04 -2016 saat 14:31




24
Vokal.
Qı - za bə -n - zər ağ çi - çək - lər Hə - rə - niz bir rəng - də - si - - - -
Inst.
29
Vokal.
- - - - - - - - - - niz Fərq - li a - - - həng - lər - də - - - - - - si - - niz
Inst.
33
Vokal.
De - yin ha - - - - ra - lar - - - da - - - sı - - nız Ağ çi - - çək - - - -
Inst.
37
Vokal.
- - - - - - - - - - lər a - - -ğ çi - - çə - - k - - - lər Qı - - za bə - - - n - - zə - - r çi - - -çə - - - k - - - -
Inst.
40
Vokal.
- - - - - - lər Siz ne - - cə - - - də gö - - zəl - - si - - niz? Gö - zəl - - lər - - -
Inst.
44
Vokal.
- - - - - - - - - dən gö - zəl - - si - - - niz Haqq bəxş e - - dib ö - zəl - - si - - niz Ağ çi - - çə - - k - - - -
Inst.



Qızlar kimi zərifsiniz,
Ağ çiçəklər, çiçəklər.
Başdan-başa tərifsiniz
Qıza bənzər ağ çiçəklər.

Hərəniz bir rəngdəsiz,
Fərqli ahənglərdəsiz.
Deyin, haralardasınız?
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər çiçəklər.

Siz necə də gözəlsiniz,
Gözəllərdən gözəlsiniz.
Haqq bəxş edib özəlsiniz,
Ağ çiçəklər, ağ çiçəklər.

Səni sevən qocalarmı?,
Sevməyənlər ucalarmı?
Sevgidən ilham alarmı?
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər çiçəklər.

Eşq əhli etdilər bəyan,
Şöhrətin aləmə əyan.
De kimdi ki, səndən doyan?
Qıza bənzər ağ çiçəklər.

Sən aşiqlərin sözüsən,
Sən təbiətin gözüsən.
Sən gözəlliyin özüsən,
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər çiçəklər.

Sən hamıdan xətirlisən,
Sən şeirimdə sətirlisən.
Sən müşk, ənbər ətirlisən,
Ağ çiçəklər, ağ çiçəklər.

Sən ülviyyətin tacısan,
Sən hər dərdin əlacısan.
İlqara doğma bacısan,
Ağ çiçəklər, ağ çiçəklər.
Qıza bənzər çiçəklər.

26. 03 – 2016 saat 20:30 – 23:48
Söz: İlqar Cəmil
(Atatürk Havalimanı-Qaziantep Havalimanı
"Atlas Qlobal" uçağı)

AĞ ÇİÇƏKLƏR № 4

Mus. və söz: İlqar Cəmil.
3. 04 - 2016 saat 09:21





Qızlar kimi zərifsiz,
Çiçəklər, ağ çiçəklər.
Başdan-başa tərifsiz,
Qıza bənzər çiçəklər.

Necə də gözəlsiniz,
Gözəldən gözəlsiniz.
Şerimdə qəzəlsiniz,
Çiçəklər, ağ çiçəklər.

Üllviyyətin tacısan,
Hər dərdin ilacısan.
Sən İlqara bacısan,
Çiçəklər, ağ çiçəklər.
Bəyaz qönçə çiçəklər.

Məsum çiçəklərimsən,
Bəyaz ləçəklərimsən.
Mənim körpəm kimisən,
Qıza bənzər çiçəklər.

Eşq əhli etdi bəyan,
Adın aləmə əyan,
Kimdiki səndən doyan?
Çiçəklər, ağ çiçəklər.

Gözəlliyin aşiqi,
Bülbüllərin məşuqu.
Gözlərinin işığı,
Çiçəklər, ağ çiçəklər.
Bəyaz qönçə çiçəklər.

NERDESİN, NERDE?

Söz: Mehmet Adəm Kanpolat.
Mus: İlqar Cəmil.
2.02 – 2016 saat 10:27




29
Vokal.
Ner - de - - sin sev - - gi - - - lim ner - - de - - sin ner - - de?
Inst.
33
Vokal.
Ak - - lı - - ma koy - mu - - şum ak - - lım a - - - l - - mı - - - yor
Inst.
37
Vokal.
Kal - bi - - me koy - mu - şum ka - - l - - bim do - - y - - mu - - yor
Inst.
41
Vokal.
Sen – den baş - - ka - - sı - - na gön - - lüm u - - - y - - - mu - - - yor
Inst.
45
Vokal.
Ner - de - - - sin gü - - ze - - lim ner - - de - - - sin ner - - - de?
Inst.
49
Vokal.
Ner - de - - sin Ay yüz - - lüm ner - - de - - - sin ner - - - de?
Inst.



NERDESİN NERDE?

Sen gittin kalp evim kimsesiz kaldı,
Nerdesin sevgilim, nerdesin nerde?
Ayyüzlüm, gidişin canımı aldı,
Nerdesin sevgilim, nerdesin nerde?

Aklıma koymuşum alkım almıyor,
Kalbime koymuşum kalbim doymuyor.
Senden başkasına gönlüm uymuyor,
Nerdesin güzelim, nerdesin nerde?

Can yaramı saran sensin öyle kal.
Seni nece gördüm öylesine kal.
Bir ömür son nefesime kadar kal,
Nerdesin Ayyüzlüm nerdesin nerde?

Adem ‘im, dünyada yüzüm gülmedi,
Gören nere gitti, aşkım gelmedi?
Kimseye demedim, derdim bilmedi,
Nerdesin nefesim nerdesin nerde?

N A K A R A T

Nerdesin Ayyüzlüm nerdesin nerde?
Nerdesin güzelim, nerdesin nerde?
Nerdesin sevgilim, nerdesin nerde?
Nerdesin bitanem nerdesin nerde?
Nerdesin nefesim nerdesin nerde? Hey.

AYDA SU BULMUŞ GİBİYİM

Mus. İlqar Cəmil.
Söz. Adəm Qanpolat.
5.04 -2016 saat 07.48




36
Vokal.
yü - - z - - lüm Ay - - da su bul - - mu - - - ş gi - - - - - - bi - - - - - yim
Inst.
41
Vokal.
Gel ar - - tı - - k ye - - - - ter bu..... can se - - - - - vi - - n - - sin
Inst.
45
Vokal.
Gö – nül ya - - - - ra - - - - - mı tek sa - - ra - - - - - n se - n – sin
Inst.
49
Vokal.
Inst.
53
Vokal.
Inst.
57
Vokal.
Gel ar - - tı - - k ye - - - - ter A - - - dem se - - - - -vi - - n - - sin
Inst.



Seni su sandım ay yüzlüm,
Ayda su bulmuş gibiyim.
Sene susadım ay yüzlüm,
Ayda su bulmuş gibiyim.

N A K A R A T

Gel artık yeter, bu can sevinsin,
Gönül yaramı tek saran sensin.
Gel artık yeter Adem sevinsin,
Gönül yaramı tek saran sensin.
Bahtıma Allah Kerimsin,
Şansıma Allah Kerimsin.
Tek senin kalbinde galsam,
Ayda su bulmuş gibiyim.

Gönül ferman dinlemiyor,
Kalbim kimseye uymuyor.
Gözüm yolunu bekliyor,
Ayda su bulmuş gibiyim.

Men yüz çevirecek olsam,
Gül gibi sararıp-solsam.
Tek senin yanında galsam,
Ayda su bulmuş gibiyim.

Hasret bitsin artık yeter,
Tək bir sözün duman edər.
Aşik Adem seni bekler,
Ayda su bulmuş gibiyim.

NOVRUZ GƏLƏNDƏ

Mus. və söz İlqar Cəmiloğlu.
12.02 – 2013 saat 09:50 /Antep





Köhnə ilin sonu çatır,
Novruz gələndə-gələndə.
Bahar muradına yetir,
Novruz gələndə-gələndə.

Haqdan mərhəmət ələnir,
Torpaq yaşıla bələnir.
Çöhrəyə seinc çilənir,
Novruz gələndə-gələndə.

Təbiətin üzü gülür,
Günəşdən nurlar süzülür,
Qar can verir, buzlar ölür,
Novruz gələndə-gələndə.

Arılar gülə qarışır,
Süsən sünbüllə yarışır,
Küsənlər o gün barışır,
Novruz gələndə-gələndə.

{Oba bilir, ellər bilir,
Türk dünyasında sevilir.}**2**
{Səmənilər, göyərdilir,
Novruz gələndə-gələndə.}**2**

{İlqar Cəmil sazı çalar,
Gözəllikdən ilham alar.}**2**
{Bu bayramdan sözü qalar,
Novruz gələndə-gələndə.}**2**

{Zirvədən duman çəkilir,
Boranın beli bükülür.}**2**
{Tarlaya toxum əkilir,
Novruz gələndə-gələndə.}**2**

Dağlar min-bir çiçək açır,
Yal-yamaclar ətir saçır,
Sürülər yaylağa qaçır,
Novruz gələndə-gələndə.}**2**

{Yenə gəlir gözəl illər,
Nəğmə deyər qız-gəlinlər.}**2**
{Bayramlaşar bizim ellər,
Novruz gələndə-gələndə.}**2**

NOVRUZ BAYRAMI XOŞ GƏLDİN

Mus. və söz İlqar Cəmil
6.02 -2013 saat 17:36





I BƏND

{Yenə gəldi bahar fəsli,**}2**
{Novruz bayramı hoş gəldin.**}2**
Bayramların əsli-nəsli,
Bayramların şahanəsi,
{Novruz bayramı hoş gəldin.**}2**

NƏQƏRAT

{*Sən İlqarın sevincisən,*
Bayramlardan birincisən,**}2**
Fəsillərdə bir incisən,
Novruz bayramı hoş gəldin.
Mövsümlərdə dür, incisən,
Novruz bayramı hoş gəldin.

II BƏND

{Dağlarda çay daşdı yenə,**}2**
{Aşıklar da coşdu yenə.**}2**
{İl-ilə qovuşdu yenə, **}2**
{Novruz bayramı hoş gəldin.**}2**

NƏQƏRAT

Hər yan qöncə, qızıl güldü,
Şənliyimiz coşan seldi,
Hər yan qöncə, qızıl güldü,
Sevincimiz daşan seldi,
{*Bayramlar içində ləldi,*
*Novruz bayramı hoş gəldin.***}2**

19.03.2012 Gaziantep

NOVRUZUM GƏL

Mus. və söz: İlgar Cəmil.
13.03 – 2016 saat 09 – 32




25
Vokal.
Ba – ha - - rın mü - j - - - də - - - - - - si - - - sən
Qa – ran – quş nə - - - - - - - -
Inst.
28
Vokal.
- - - - - - - - - - fə - - s - - li - - sən
Ül – vi eşq hə - - - - - və - - s - - - li - - sən
Inst.
31
Vokal.
Gəl gəl a Nov - - - ru - zu - - m gəl
Tə - bi - - - ət o - - - - - - - - -
Inst.
34
Vokal.
- - - - - - - - - ya - - nı - - b - - dır
Şa - ha - - nə da - - - - - ya - - ni - - b - - dır
Inst.
37
Vokal.
Gö - zəl - - lik ya - - - - - - ra - - nı - - - b - - dır
Gəl gəl a Nov - - - - -
Inst.
40
Vokal.
- - - - - - - - - - - - ru - - zu - - m gə - - - l
Tez gəl a Nov - - - ru - - zu - - - m gəl
Inst.
Fine

GƏL GƏL A NOVRUZUM, GƏL.

Açıldı Novruz gülüm,
Gəl gəl a Novruzum, gəl.
İki min on altı ilim,
Tez gəl a Novruzum, gəl.

Baharın müjdəsisən,
Qaranquş nəfəslisən.
Ülvi eşq həvəslisən,
Gəl gəl a Novruzum, gəl.

Təbiət oyanıbdır,
Şahanə dayanıbdır,
Gözəllik yaranıbdır,
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

* * *

Bayramların başısan.
Baharın zər qaşısan,
Mücövhəri, daşısan,
Gəl gəl a Novruzum, gəl.

Gəlişinlə yaz gətir,
Sədəflənmiş saz gətir,
Şeir qoşub yaz gətir,
Gəl gəl a Novruzum, gəl.

Gəl, insanlar sevinsin,
Fərəhlənib öyünsün,
Ürək eşqlə döyünsün
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

* * *

İnsanı yaşadansan,
Sultansan, paşadansan,
Hər axşam, sabah, dansan,
Gəl gəl a Novruzum, gəl.

Gəlişin barış olsun,
Sülh olsun, yarış olsun,
Gözəl sifariş olsun,
Gəl gəl a Novruzum, gəl.

İlqarın arzususan,
İstəyi, arzusu sən.
Haralarda qalıbsan?
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

Prof.Dr. İlqar Cəmil. 7.06 – 2016 saat 21:25

XOŞ GƏLMİSƏN NOVRUZUM

Mus. və söz: İlqar Cəmil.
4.04 – 2018 saat 17:37 / Qaziantep




16
Vokal.
a - - l - - dı - - - m hər - dən Şi - - mal Cə - nub Şə - r - - qi ..... Qərb - dən
Inst.
19
Vokal.
Sə - dan gə - lir hə - - r di - - - - - - ya - r - dan Xoş gəl - mi - - - - - sə - - - n
Inst.
22
Vokal.
No - v - ru - - - - zum Bin bə - rə - - kə - t gə - - - - ti - - - - - rir - - sən
Inst.
25
Vokal.
Xoş müj - də - - - lə - - r ye - - - - ti - - - - - rir - sən Bol zə - - mi - - - - lə - - r
Inst.
28
Vokal.
bi - - - - ti - - - - ri - - r - - sən Xoş gəl - mi - - - sə - n No - v - ru - - - - zum
Inst.
31
Vokal.
Xoş gəl - mi - - sə - n Nov - ru - - zu - - m a - - y No - v - - ru - - - - - zum
Inst.
Fine

Keçən il arzuladım,
Xoş gəlmisən Novruzum.
Nə müqəddəsdir adın.
Xoş gəlmisən Novruzum.

Sorağını aldım hərdən,
Şimal, Cənub, Şərqi, Qərbdən.
Sədan gəir hər diyardan,
Xoş gəlmisən Novruzum.

Bin-bərəkət gətirirsən,
Xoş müjdələr yetirirsən.
Bol zəmilər bitirirsən,
Xoş gəlmisən Novruzum.

N Ə Q Ə R A T
{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2

Qədəmlərin mübarək,
Hər gəliş arzu, dilək.
Bu cismimdə bir ürək,
Xoş gəlmisən Novruzum.

İlhamı səndən alırıq,
Sazı şövq ilə çalırıq.
Sənlə yaşlara doluruq,
Xoş gəlmisən Novruzum.

Sən ismətin timsalısan,
Məhəbbətin əmsalısan.
Bizləri yada salırsan,
Xoş gəlmisən Novruzum.

N Ə Q Ə R A T
{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2

Zövqümüzün tacısan,
Bizə qardaş, bacısan.
Dərdlərin ilacısan,
Xoş gəlmisən Novruzum.

Özgə yerin var ürəkdə,
Halal zəhmət var çörəkdə.
Yaşayırsan diləklərdə,
Xoş gəlmisən Novruzum.

Urzumuzu gətirib gəl,
Murazımı götürüb gəl.
Qarı, buzu ötürüb gəl,
Xoş gəlmisən Novruzum.

Qəlb fərəhlə döyünür.
Şad olur, çox söyünür,
İlqar sənlə öyünür,
Xoş gəlmisən Novruzum.

Səndən ilham alır aşıq,
Sevgililər, aşiq, məşuq.
Bu cahana sən yaraşıq,
Xoş gəlmisən Novruzum.

Sən gələndə bayram olur,
Min bir büsat, dövran olur,
Hər kəs sənə heyran olur.
Xoş gəlmisən Novruzum.

N Ə Q Ə R A T
Xoş gəlmisən, Novruzum ay Novruzum,

XIDIRƏLLƏZ, BAHAR GƏLDİ

Söz: Osman Sarıvəlli.
Mus. İlqar Cəmil.
20.04 – 2018 saat 16:47





I BƏND

Doğdu günəş əridi qar,
Xızır gəldi, hüzur gəldi.
